Günəş Şərqdən doğur!

❒ № 41 (5322), 2021-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 4 mart 2021-ci il (cümə axşamı)



## ÜST xəbərdarlıq edib

Pandemiyanın 2021-də bitəcəyi real deyil

ÜST rəsmisi Mayk Rayan koronovirusun ilin sonuna qədər başa çatacağının real olmadığını bildirib.

(Səh.8)

## Ağdamda vəzifəli şəxs minaya düşüb

Onun baldırının yuxarı üçdə bir hissəsində amputasiya əməliyyatı aparıldı



Ağdam rayonunun Novruzlu kəndi ərazisində minaya düşən Mexaniki Suvarma İdarəsinin rəisi Hafiz Əzimzadənin durumu haqda həkimi məlumat verib.

(Səh.7)

## Günün içindən...



### Hərbçilərin maaşına əlavələr yaxın günlərdə ödəniləcək

**Müdafiə nazirinin müvafiq əmrinə əsasən hərbi qulluqçuların aylıq vəzifə maaşlarına müəyyən edilən müddəti əlavələrin nə zaman ödəniləcəyi açıqlanıb.**

Müdafiə Nazirliyindən "Şərq"ə bildirilib ki, hərbi qulluqçulara yaxın günlərdə yeni əlavələr ödəniləcək: "Maliyyə ödəməsi keçən ilin dekabr, cari ilin yanvar və fevral aylarını əhatə edəcək".

(səh.2)

### Qazimizin gözləri açıldı

Həkimə şokolad hədiyyə etdi




İsrailli həkim Vətən müharibəsi qazisi Arif Hacıyevin gözünü əməliyyat edərək görmə qabiliyyətini bərpa edib.

(səh.7)

# "Pakistanla birgə hərbi təlimlərin vaxtı çatıb"



**Prezident: "Biz Azərbaycan, Türkiyə və Pakistan arasında üçtərəfli əməkdaşlıq formatının şahidi olduq"**

Dünən Prezident İlham Əliyev Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Nadim Razanın başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edib.

(səh.2)

# Metro yaxın günlərdə işləyəcək




Artıq müəyyən tədbirlərin görülməsi buna işarədir

(səh.8)

✓ **Xankəndiyə 5-6 min erməni ancaq gətirilib**

Aydındır ki, Rusiya öz məqsədləri üçün rəqəmləri şişirdir

(səh.5)

✓ **Lənət olsun sənə, virus!**

Amansız xəstəlik millətin bir işığını da söndürdü

(səh.6)

✓ ABŞ daha rejimləri devirməyəcək, çünki xeyri yoxdur

(səh.5)

✓ **Koronavirusdan ölənlərin sayı artdı**

319 nəfər yoluxub, 161 nəfər müalicə olunaraq sağalıb

(səh.8)

# “Pakistanla birgə hərbi təlimlərin vaxtı çatıb”



## Prezident: “Biz Azərbaycan, Türkiyə və Pakistan arasında üçtərəfli əməkdaşlıq formatının şahidi olduq”

Dünən Prezident İlham Əliyev Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Nadim Razanın başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edib. Dövlət başçısı müharibə zamanı nümayiş etdirilən həmrəyliyə və dəstəyə görə qardaş Pakistana təşəkkürünü ifadə edib:

”Torpaqlarımızın azadlığı uğrunda apardığımız müharibə 44 gün çəkdi və Azərbaycanın Ermənistan üzərində qələbəsi ilə başa çatdı. Biz 30 ilə yaxın işğal altında olan ərazilərimizi azad etdik. Müharibənin ilk günündən Pakistan Azərbaycana həmrəylik və dəstək nümayiş etdirib. Pakistan Azərbaycanın işğal olunmuş ərazilərindən qoşunların dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasının tərəfdarı kimi çıxış etdi və Ermənistanın təcavüzünü pislədi. Bu, həqiqi qardaşlıq və dostluğun nümunəsi idi. Yəqin bilirsiniz ki, Azərbaycanda insanlar Pakistan xalqı ilə, ölkənizlə bağlı öz hisslərini nümayiş etdirdilər, müharibə zamanı Pakistan bayraqlarını dalğalandırdılar. Bu, bir daha bizim birlik və qardaşlığımızı nümayiş etdirir”.

**“Azərbaycan hər zaman Kəşmir daxil olmaqla, bütün digər məsələlərdə Pakistanı dəstəkləyir”**

**Dövlət başçısı bildirib ki, Azərbaycan hər zaman Kəşmir daxil olmaqla, bütün digər məsələlərdə Pakistanı dəstəkləyir:** ”Ölkələrimiz arasında əlaqələrin uzun tarixi var. Pakistan dünyanın Ermənistanla diplomatik münasibətlər qurmayan azsaylı dövlətlərindən biridir və Azərbaycanın torpaqlarının işğalı səbəbindən Ermənistanı rəsmi olaraq tanımayıb. Prezident qeyd edib ki, xalqımız bundan xəbərdardır və biz bunu çox yüksək qiymətləndiririk: ”Azərbaycan da öz növbəsində, hər zaman Kəşmir məsələsi daxil olmaqla, bütün digər məsələlərdə Pakistanı dəstəkləyir. Bu dəstək tərəfimizdən BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təsisatlarda verilir. Sabah İqtisadi Əməkdaşlıq Təşkilatının videokonfrans formatında Zirvə toplantısı keçiriləcək və biz ölkələrimiz arasında iqtisadi əməkdaşlığı müzakirə edəcəyik. İkitərəfli münasibətlərimizə bir daha toxunaraq qeyd etmək istəyirəm ki, biz diqqətimizi iqtisadiyyat sahəsində cəmləşdirəcəyik. Buraya energetika və nəqliyyat sahəsi aiddir. Biz ümid edirik ki, Pakistan ölkəmizin ərazisindən keçən mövcud və yeni yaranmaqda olan nəqliyyat marşrutlarına qoşulacaq. Beləliklə də biz əməkdaşlığımızı bu sahədə də genişləndirmiş olacağıq”.

**”Pakistanla hərbi sahədə əməkdaşlığımızın böyük potensialı var”**

**Ölkə rəhbəri vurğulayıb ki, Pakistanla birgə hərbi təlimlərin vaxtı çatıb:** ”Əlbəttə, hərbi sahədə əməkdaşlığımızın böyük potensialı var və əminəm ki, bu gün siz həmkarlarınızla gələcək planlarımızı müzakirə edəcəksiniz. Biz artıq Pakistan müdafiə sənayesinin məhsulları ilə tanışıq. Bildiyiniz kimi, biz Pakistandan hərbi avadanlıq almışıq və bu proses davam etdirmək arzusundayıq. Bununla yanaşı, biz birgə hərbi təlimlər üzərində düşünürük. Hesab edirik ki, artıq bunun vaxtı çatıb”.

**“Ölkələrimiz regionda sülh və ədalətin tərəfdarıdır”**

“Biz artıq Azərbaycan, Türkiyə və Pakistan arasında siyasi və digər sahələrdə, o cümlədən müdafiə sahəsində üçtərəfli əməkdaşlıq formatının yaxşı nəticələrinin şahidi olduq. Hesab edirəm ki, biz səylərimizi birləşdirərək mövqelərimizi gücləndirəcəyik və sülhə töhfə verəcəyik. Çünki ölkələrimiz regionda sülh və ədalətin tərəfdarıdır. Biz beynəlxalq hüququn işləmədiyini, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin 27 il ərzində icra edilmədiyini, beynəlxalq ictimaiyyət tərəfindən Ermənistana qarşı sanksiyaların tətbiq olunmadığını, Ermənistanın cəzalandırılmadığını və sonsuz danışıqların dalana dirəndiyini görəndə ədaləti özümüz bərpa etməli olduq. Yəni beynəlxalq hüquq işləmədiyi halda, o, güc vasitəsilə həyata keçirilməlidir. Biz buna nail olduq və bunu bütün dünyaya nümayiş etdirdik. Ancaq biz sülh istəyirik və bu gün sülhü təbliğ edirik. Beləliklə, bizim hərbi sahədə əməkdaşlığımız dünyada sülhün bərqərar olunması işinə töhfə verəcək”.

**İsmayıl**



## Hərbçilərin maaşına əlavələr yaxın günlərdə ödəniləcək

**Müdafiə nazirinin müvafiq əmrinə əsasən hərbi qulluqçuların aylıq vəzifə maaşlarına müəyyən edilən müddəti əlavələrin nə zaman ödəniləcəyi açıqlanıb.**

Müdafiə Nazirliyindən ”Şərq”ə bildirilib ki, hərbi qulluqçulara yaxın günlərdə yeni əlavələr ödəniləcək: ”Maliyyə ödəməsi keçən ilin dekabr, cari ilin yanvar və fevral aylarını əhatə edəcək”.

Qeyd edək ki, əmrə əsasən Azərbaycan Ordusunun Ermənistanla dövlət sərhədində və Azərbaycanın Qarabağ bölgəsində Rusiya Federasiyası sülhməramlı kontingentinin yerləşdirildiyi zonaya bitişik ərazilərdə hərbi xidmət keçən hərbi qulluqçuların aylıq vəzifə maaşlarına 100 faiz həcmində müddətli əlavələr təyin edilib.

İşğaldan azad edilmiş və hazırda infrastruktur qurulmayan ərazilərdə hərbi xidmət keçən hərbçilərin aylıq vəzifə maaşlarına isə 50 faiz həcmində müddətli əlavələr təyin olunub.

## Nəqliyyatın hərəkəti dayandırılacaq

### Nazirlər Kabineti 8 Marta görə qərarında dəyişiklik etdi

**Azərbaycan ərazisində 6 mart saat 00:00-dan 9 mart saat 06:00-dək ictimai nəqliyyatın hərəkəti dayandırılacaq.**

Nazirlər Kabineti bununla bağlı ”Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə” qərarında müvafiq dəyişiklik edib.

Bundan öncə ”Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə” qərara əsasən, Azərbaycan ərazisində 6 mart saat 00:00-dan 8 mart saat 06:00-dək ictimai nəqliyyatın hərəkəti dayandırılmalı idi.

*Qeyd edək ki, 8 Mart Beynəlxalq Qadınlar Günü qeyri-iş günüdür.*

## Paşinyan parlamentdə tribunaya çıxmaqdan imtina edib



**Yerevanda Ermənistanın baş naziri Nikol Paşinyanın istefası tələbi ilə növbəti etiraz aksiyası keçirilir.**

Trend bildirir ki, etirazçılar parlament binasının önünə toplaşıb.

Qeyd olunur ki, polis əməkdaşları ətraf yolları bağlayıb. Parlament binasına snayperlər yerləşdirilib, yerdə xüsusi səs qumbaraları düzülüb.

Eyni zamanda, parlamentdə hökumət üzvlərinin iştirtakı ilə iclas başlayıb.

N.Paşinyan iclasda iştirak etsə də, sualları cavablandırmaq üçün tribunaya çıxmaqdan imtina edib.

# Türkiyə və Fransa toqquşmadan imtina etdi

### Əziz Əlibəyli: “Onların arasındakı gərginlik ABŞ-dakı yeni iqtidar üçün arzuolunmazdır”

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Fransa Prezidenti Emmanuel Makron arasında telefon danışığı olub. Liderlər beş aylıq fasilədən sonra Türkiyə-Fransa münasibətlərini, mövcud problemləri müzakirə ediblər. Bildirilir ki, Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyə-Fransa əməkdaşlığının çox ciddi potensiala malik olduğunu dilə gətirib.

Onun fransalı həmkarına ”Əziz qardaşım” xitabı isə xüsusi diqqət çəkib. Sözügedən telefon danışığı tərəflər arasındakı ”buzların əridiyi”nin göstəricisidir. Siyasətdə təsadüfi addımların olmadığını nəzərə alsaq, deməli, ”təbəssümlər” nəyəsə hesablanıb.



**Sosial Tədqiqatlar Mərkəzinin mətbut xidmətinin rəisi, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli bu barədə fikirlərini ”Şərq”lə bölüşüb. O, tərəflərin konstruktiv mövqedə dayandıqlarını düşünür:** ”Ankaranın builki planları bir tərəfdən ”böyük oyun”dursa, digər tərəfdən əməkdaşlıqları inkişaf etdirməkdir. Fransa-Türkiyə arasında ciddi iş birliyinin olduğunu nəzərə almalıyıq. Eyni zamanda bu il Ankara sazişinin yüz ili tamam olur. Bu amillər tərəflər arasında münasibətlərin qorunmasını şərtləndirir. Hər iki dövlət əməkdaşlıqda maraqlıdır”.

***Ə.Əlibəyli proseslərin bu cür inkişaf etməsində ABŞ-ın ”əli”ni də istisna etmir:*** ”Məlumdur ki, həm Türkiyə, həm Fransa NATO ölkəsidir. Onların arasındakı gərginlik ABŞ-dakı yeni iqtidar üçün arzuolunmazdır. Çünki Bayden administrasiyası anti-terror tərəfdarıdır. Yəni məncə, Türkiyə ilə Fransa arasındakı loyal dialoqlarda rəsmi Vaşinqtonun da xidmətləri var. Potensial qarşıdurma təkcə həmin dövlətlərə deyil, eləcə də NATO-ya, ABŞ-a ziyan vura bilər. Ona görə də Türkiyə və Fransa toqquşmadan imtina etdilər”.

**Kənan Novruzov**

# “Biz istəyirik sülh dayanıqlı olsun”



## Mövlud Çavuşoğlu: “Azərbaycan-Türkiyə-Gürcüstan əməkdaşlığı bütün region üçün çox vacibdir”

**“3+3” platformasının məqsədi regionda sülhü dayanıqlı etməkdir”. Bunu Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu gürcü həmkarı David Zalkaliani ilə birgə mətbuat konfransında deyib.**

Çavuşoğlu bildirib ki, Azərbaycanın təklif etdiyi ”3+3” platformasının məqsədi regionda sülhü dayanıqlı etməkdir. Nazirin sözlərinə görə, ”3+3” platformasının məqsədi logistik, iqtisadi, enerji sahələrindəki layihələrlə bağlı etibarlı addımlar atmaqdır: ”Biz bu məsələdə Gürcüstanın mövqeyinə hörmətlə yanaşırıq”.

**“Azərbaycanın təklif etdiyi “3+3” platformasını dəstəkləyirik”**

Türkiyə XİN başçısı qeyd edib ki, Ankara Azərbaycanın təklif etdiyi ”3+3” platformasını dəstəkləyir: ”Gürcü həmkarımla regional ortaq layihələri, Qarabağda atəşkəsdən sonra bölgənin istiqrarı üçün atıla biləcək addımları müzakirə etdik. Azərbaycanın təklif etdiyi ”3+3” platformasını dəstəkləyirik. Gürcüstanın bu məsələdə bəzi tərəddüdləri var, bunu anlayışla qarşılayırıq. Gürcüstanın da iştirak edəcəyi regional əməkdaşlığa dəstəyimiz artacaq. Biz Türkiyə-Azərbaycan-Gürcüstan üçtərəfli əməkdaşlığına əhəmiyyət veririk”.

**“Qafqazda sabitlik bizim üçün çox əhəmiyyətlidir”**

Çavuşoğlu vurğulayıb ki, Qafqazda sabitlik bizim üçün çox əhəmiyyətlidir: ”Qafqazda sabitlik bizim üçün çox əhəmiyyətlidir. Regionda davamlı sülh üçün dövlətlərin ərazi bütövlüyü məsələsinə əhəmiyyət veririk. Biz Azərbaycanın ərazi bütövlüyünü necə dəstəkləyiriksə, Gürcüstanın da ərazi bütövlüyünü o cür güclü şəkildə dəstəkləyirik”.

**“XİN başçılarının görüşünü ən qısa zamanda keçirəcəyik”**

Çavuşoğlu bəyan edib ki, Azərbaycan-Gürcüstan-Türkiyə XİN başçılarının görüşünü ən qısa zamanda keçirəcəyik: ”Bakıda keçirilməsi nəzərdə tutulan, lakin Gürcüstanda baş verən hökumət dəyişikliyinə görə təxirə salınan Azərbaycan-Gürcüstan-Türkiyə XİN başçılarının 9-cu üçtərəfli görüşünü ən qısa zamanda keçirəcəyik.

**“Viza məsələsində Aİ-dən siyasi iradə görmək istəyirik”**

Türkiyə XİN başçısı bildirib ki, Ankara hökuməti viza məsələsində Aİ-dən siyasi iradə görmək istəyir: ”Türkiyənin indiyə qədər atdığı addımlar viza rejiminin aradan qaldırılması üçün yetərli hesab olunur. Amma Aİ üçün yetərli deyil və bunun üçün Aİ siyasi iradə göstərməlidir. Avropa İttifaqı tərəfindən siyasi iradə görmək istəyirik. 23-cü və 24-cü fəsillərlə bağlı şərtlər yerinə yetirildiyi halda blok edildiyi üçün bu fəsillər açılmır və digər bəzi fəsillər də blokdadır. Siyasi qərarlara görə bu fəsillərlə bağlı müzakirələr, təəssüf ki, sadəcə səngiməyib, son zamanlarda dayandırılıb. Viza ilə bağlı 4 və ya 5 şərt qalıb, artıq bu şərtlərlə bağlı da addımlar atılıb”. Türkiyə XİN başçısı deyib ki, əgər Aİ Gürcüstana və Ukraynaya qarşı göstərdiyi yumşaqlığın yarısını Türkiyəyə göstərərsə, Türkiyə və Aİ arsında viza rejimi ləvğ oluna bilər. Çavuşoğlu onu da əlavə edib ki, ölkəsi üçün vacib olan müxtəlif sahələrdə islahatlar davam edəcək: ”Növbəti həftə prezident iqtisadi sahədə islahatları açıqlayacaq”.

**“Əminik ki, birlikdə problemlərin öhdəsindən gələcəyik”**

Gürcüstanın Xarici işlər naziri David Zalkaliani isə deyib ki, Azərbaycan-Türkiyə-Gürcüstan əməkdaşlığı bütün region üçün çox vacibdir: ”Türkiyə və Gürcüstan arasında çox məhsuldar münasibətlər var. Biz bu münasibətləri daha da genişləndirəcəyik. İqtisadi, siyasi, mədəni sahələrdə dinamik əlaqələr mövcuddur. Strateji əməkdaşlığımızı gücləndirməliyik. Bölgədə mövcud olan vəziyyəti müzakirə etdik. Əminik ki, birlikdə problemlərin öhdəsindən gələcəyik. Bu gün biz yeni formatlar barədə danışdıq. Bu formatlar ölkələrin suverenliyi və ərazi bütövlüyünə əsaslanmalıdır. Üçlük formatı - Azərbaycan, Türkiyə və Gürcüstan barədə də fikir mübadiləsi apardıq. Xəzər bölgəsində bizim bu əməkdaşlığımız bütün region üçün çox vacibdir”.

**İsmayıl**




## Azərbaycan və İtaliya XİN başçılarının telefonla danışıb

**Bu gün Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maio ilə telefon danışığı baş tutub.**

Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən “Şərq”ə verilən xəbərə görə, nazir Ceyhun Bayramov hazırda bölgədə mövcud olan vəziyyət, 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli üçtərəfli bəyanatların həyata keçirilməsi ilə bağlı məsələlər, o cümlədən ölkəmiz tərəfindən bu istiqamətdə görülən işlər və Ermənistanın bəyanatdan irəli gələn öhdəliklərinə qarşı olan pozucu əməlləri barədə italiyalı həmkarına məlumat verib.

Nazir Luici Di Maio bölgədə dövlətlərarası vəziyyətin normallaşması üçün üçtərəfli bəyanatların bütün aspektlərinin həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Nazirlər, həmçinin ölkələr arasında mövcud olan münasibətlərin hərtərəfli inkişafı perspektivləri, regiondakı yeni əməkdaşlıq imkanları, enerji və humanitar sahələrdə əməkdaşlığın genişlənməsi imkanlarını müzakirə ediblər.

Tərəflər, habelə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## Bakıda 20 min müəllim və texniki işçi vaksinasiyadan keçəcək

**Kütləvi vaksinasiya məktəblərin əyani tədrisə keçidini daha da sürətləndirəcək.**

Bunu Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva deyib.

O bildirib ki, 50 yaşdan yuxarı olan təxminən 20 min müəllim və texniki işçi vaksinasiyadan keçəcək. Bunun üçün Bakıda 5 məktəb mərkəz kimi təşkil edilib.

*M.Vəliyeva qeyd edib ki, vaksinasiya bizim normal həyata keçməyimizi təmin edəcək.*

# Yerevan hökuməti qarabağlı ermənilərdən xilas olmağa çalışır

*Yeni pasportlarda Qarabağ ermənilərinin doğulduqları yerə “Azərbaycan” sözünün yazılması metodlardan biridir*

Qarabağda doğulan Ermənistan vətəndaşlarının yeni pasportlarında doğum yeri hissəsinə "Azərbaycan" yazılmağa başlanılıb. Bu barədə Yerevan Ağsaqqallar Şurasının "Mənim addımım" fraksiyasından olan keçmiş üzvü, memar Arsen Karapetyan öz feysbuk hesabında yazıb.

Karapetyan qeyd edib ki, dostu 80-ci illərin ortalarında Ağdərədə (Mardakertdə) anadan olub. Daha sonra isə Rusiyada yaşayıb və hazırda Ermənistan vətəndaşlığı almaq üçün müraciət edib. Onun pasportunda doğum yeri kimi isə Azərbaycan göstərilib: ”Azərbaycan SSR deyil, ”DQR” deyil, sadəcə Azərbaycan. İndi dostum deyir ki, nəhayət xəyal etdiyi vətəndaşlığı aldı və məlum oldu ki, o, Azərbaycandandır. Nədir bu?”.

Məsələ ilə bağlı Ermənistan polisinin pasport və viza şöbəsinin rəis müavini Məryəm Gevorkyan açıqlama verib. O bildirib ki, bu vətəndaş sovet dövründə Azərbaycan SSR-də anadan olub: ”Ermənistan Respublikasının pasportu səyahət sənədidir, beynəlxalq standartlara uyğundur, ona görə keçmiş SSRİ ölkələri üçün kodlar yoxdur. Başqa sözlə, əgər bir insan keçmiş SSRİ-nin bir ölkəsində anadan olubsa, onun doğulduğu yer pasporta ölkənin indiki adı ilə qeyd olunur, yəni Gürcüstan SSRİ deyil, Gürcüstan”. Karapetyan şərh bölümündə dostunun doğulduğu yerin ”Azərbaycan SSR” kimi göstərildiyi Rusiya pasportunu da yerləşdirib.

**Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat Xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli ”Şərq”ə deyib ki, Ermənistan Viza İdarəsinin bu addımı Baş nazir Nikol Paşinyanın direktividir. Ekspert bildirib ki, bu, məqsədyönlü tətbiq olunan bir tendensiyadır:** ”Qarabağda yaşayan ermənilərin sayı ilə bağlı ciddi şəkildə mübahisələr var. Köçürmələrlə rəqəmi şişirtməyə çalışsalar da, məlum oldu ki, özlərinin iddia etdiyi kimi heç də yüz minlərlə ermənidən söhbət getmir. Rusiya Müdafiə Nazirliyinin son açıqlamasına əsasən, təxminən 55 min ermənininin Xankəndi və ətraf ərazilərə daşındığı deyilir. Məsələ ondadır ki, Ermənistanın özü üçün erməni əhalisinin sayının dəqiqləşməsinə ehtiyac var. Paşinyan hökuməti bilməlidir ki, Ermənistan vətəndaşları və Qarabağdan gələn ermənilər rəsmi olaraq nə qədərdir. Ermənistandakı camaat Qarabağdan gedənləri özləri üçün problem görürlər. Hesab edirlər ki, Ermənistandakı bütün erməni ”qaçqınları” yavaş-yavaş Qarabağa qaytarmaq lazımdır. Yəni keçid dövrü üçün Azərbaycan vətəndaşı sayılan ermənilər bundan sonra bizim ölkənin qanun və hüquqları çərçivəsində öhdəliklərini qəbul etməlidirlər. Azərbaycan üçün artıq Qarabağ problemi yoxdur, amma Ermənistan üçün belə bir problem qalmaqdadır”.




**“Böyük ehtimalla, Qarabağdakı separatçıların da pasportlarında “Azərbaycan” yazılıb”**

***Ə.Əlibəyli vurğulayıb ki, Yerevan hökuməti müxtəlif üsullarla qarabağlı ermənilərdən xilas olmağa çalışır:*** ”Yeni pasportlarda Qarabağ ermənilərinin doğulduqları yerə ”Azərbaycan” sözünün yazılması bu metodlardan biridir. Böyük ehtimalla, Qarabağdakı separatçıların da pasportlarında ”Azərbaycan” yazılıb. Məqsəd Xankəndi və ətrafındakı ermənilərlə əlaqəni tədricən kəsmək və onların mərkəzi hökumətə yaradacağı təhlükəni birdəfəlik aradan qaldırmaqdır”.

**İsmayıl Qocayev**

# İddia qaldırıb qazanmalıyıq

## 26 il bizə məxsus ərazilərdə qanunsuz hasilat işləri aparılıb



**"Azərbaycan işğaldan azad olunmuş ərazilərdəki bütün qızıl yataqlarında və digər qiymətli metal mədənlərində yeganə söz sahibidir"**

İşğaldan azad edilmiş ərazilərimizdə yerləşən qiymətli metal yataqlarının işlənməsi məsələsi Ermənistanın da diqqət mərkəzindədir. Ermənilər 30 ilə yaxın müddətdə istismar edərək milyardlarla dollar qazandıqları yataqların aqibətini həssaslıqla izləyirlər.

Bir neçə gün əvvəl "Gpartners" hüquq firmasının nümayəndəsi Sarkis Qriqoryan maraqlı açıqlama ilə çıxış edib. O, iddia edib ki, yanvarın sonlarında Azərbaycan hökuməti ilə Böyük Britaniyanın "Anglo Asian Mining plc" şirkəti arasında "Söyüdlü" (Zod), "Vejnəli" (Zəngilan) və "Qızılbulaq" (Kaşen, Ağdərə) qiymətli metal yataqlarında istismara başlanması barədə razılaşma əldə olunub. Qriqoryan deyib ki, müharibəyə qədər bu yataqlar "GeoProMining Gold" və "Vallex Group" şirkətləri tərəfindən istismar olunub. Həmin şirkətlər bu yataqların işlənməsinə 250 milyon dollara qədər investisiya yatırıblar. Lakin həmin şirkət hazırda burada heç bir iş aparmır, çünki yatağın 75 faizindən çoxu Azərbaycan silahlı qüvvələrinin nəzarətindədir. Rusiya mənşəli bu şirkətin cəmi iki ölkədə aktivləri var - Rusiya və Ermənistanda. Deyilənə görə, Zod yatağının ehtiyatlarının həcmi 74,7 ton qızıl təşkil edir ki, bu da 4,4 milyard dollar deməkdir. Erməni hüquqşünası beynəlxalq təşkilatlar vasitəsi ilə Azərbaycana dava açmaq, kompensasiya tələb etmək kimi sərsəm ifadələr də səsləndirib: "Niyə Ermənistan hökuməti Qafqazın ən böyük qızıl mədəni ilə bağlı məsələdə fəaliyyətsizlik göstərir? Ermənistan hökuməti niyə Azərbaycan qarşısında kompensasiya tələbi qaldırmır?".

Məlumat üçün bildirək ki, erməni hüquqşünasın həyasızlıqla kompensasiya tələb etdiyi yataqlardan ikisi - "Vejnəli" və "Qızılbulaq" yataqları bütünlüklə Azərbaycan ərazisində yerləşir. Sonuncu yataq misqızıl ehtiyatlarına görə hətta "Söyüdlü"dən böyük hesab olunur. Hazırda onun yerləşdiyi əraziyə Rusiya sülhməramlı qüvvələri nəzarət edir.

**Yataqlarla bağlı qeyri-müəyyənliyi "Şərq"ə dəyərləndirən iqtisadçı-ekspert Natiq Cəfərli bildirib ki, Azərbaycan işğaldan azad olunmuş ərazilərdəki bütün qızıl yataqlarında və digər qiymətli metal mədənlərində yeganə söz sahibidir.** Ekspert hesab edir ki, işğal edilmiş ərazilərimizdə uzun illər qeyri-qanuni fəaliyyət icra edilməsi, mədənlərin istismarı Azərbaycanın həmin şirkətlərə qarşı iddia ilə çıxış etməsinə imkan yaradır: "İndi sərhədlərin dəqiqləşdirilməsi, demarkasiyası prosesi gedir. Proses yekunlaşandan sonra hansısa birgə müəssisələrin, xarici şirkətlərin iştirakı ilə mədənlərin ortaq işlədilməsi mümkündür. Hətta qanuni olaraq müəyyən hissəsi Ermənistan sərhədləri daxilində qalan mədənlərin də birgə fəaliyyətini təşkil etmək olar. Amma bir şərtlə ki, bugünədək torpaqlarımızda fəaliyyət göstərən beynəlxalq şirkətlərlə bağlı Azərbaycan tərəfinin iddiaları təmin edilsin. 25-26 il bizə məxsus ərazilərdə qanunsuz hasilat işləri aparılıb. Dövlətlərə qarşı hüquqi iddialar daha ağır prosedur qaydalardan keçir, ancaq özəl şirkətlərə qarşı iddialarda tez nəticə əldə etmək mümkündür. Əslində şirkətlərin də marağında olar ki, ağır cərimələrə, sanksiyalara məruz qalmamaq üçün rəsmi Bakı ilə anlaşma əldə etsinlər. Fikrimcə, sərhəd zolağının təhlükəsizliyi təmin edildikdən sonra yataqlarla bağlı problem həllini tapacaq".

**İsmayıl Qocayev**

# Gürcüstan regional layihələrdən kənarda qalmaq istəmir

## Qonşularımızın "Altılıq" platformasına qoşulma ehtimalı yüksəkdir



**Gürcüstanın Xarici işlər naziri David Zalkaliani türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə birgə mətbuat konfransı keçirib.**

Konfransda o qeyd edib ki, Gürcüstan regional platformalardan kənarda qalmamalıdır. Həmçinin D. Zalkaliani bildirib ki, biz anlayırıq ki, bölgədə sabitliyin qorunması Türkiyə üçün çox önəmlidir: "Amma bu platformalarda yer alan ölkələr mütləq digər ölkələrin ərazi bütövlüyü və suverenliyinə hörmət etməlidir".

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən politoloq Əhəd Məmmədli hesab edir ki, Gürcüstanın "Altılıq" platformasına qoşulma ehtimalı var. Politoloqun sözlərinə görə, Gürcüstan regionda son iqtisadi layihələrin hamısında iştirak edib:** "Belə deyək ki, o, öz mənfəətinə uyğun istifadə edib. Yəni bu iqtisadi layihələrin hesabına Gürcüstan dövlət olaraq ayağa qalxıb. Gürcüstan 1990-cı illərdə çox pis vəziyyətdə idi".

*Ə.Məmmədli vurğulayıb ki, Azərbaycan və Ermənistan müharibəsi regionda Gürcüstan üçün yeni imkanlar yaradıb:* "İndi sadəcə olaraq, Azərbaycanla Ermənistan arasında tədricən kommunikasiyaların açılması və s. üzrədir. Ola bilsin ki, bu, artıq Gürcüstanda bir narahatlıq doğurmaqdadır. Yəni onlar düşünürlər ki, gələcəkdə hansısa proseslərdən, layihələrdən kənarda qala bilərlər. Gürcüstan Xarici işlər nazirinin türkiyəli həmkarı ilə görüşdə bunu bir daha vurğulamasında aydın görünür".

**Aynurə Pənahqızı**

# "Üç"lər Qarabağda birləşir

## Ədalət Verdiyev: "Azərbaycan, Türkiyə və Pakistan arasında birgə istehsal sahəsinin qurulması mümkündür"



**Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Nadim Razanın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana rəsmi səfərə gəlib.**

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Bildirilib ki, martın 6-na kimi davam edəcək səfər çərçivəsində general N.Raza ölkəmizdə bir sıra görüşlər keçirəcək.

Vətən müharibəsi bitəndən bir neçə gün sonra Türkiyə və Pakistanla qarşılıqlı əlaqələrin güclənməsi ciddi müzakirələrə səbəb olur. Belə ki, bəziləri bunu yeni savaşa hazırlıq kimi qiymətləndirirlər.

**Hərbi ekspert Ədalət Verdiyev Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədrinin Azərbaycana səfərini "Şərq"ə qiymətləndirdi:**

"Azərbaycanın müstəqillik qazanmasından bu yana əlaqələrimiz inkişaf edir. Fikrimcə, görüşdən sonra əməkdaşlığımız daha ali səviyyəyə qalxacaq. Hər halda biz Pakistanın silah sistemlərinə maraq göstərir, onlardan müxtəlif silahlar alırıq. Azərbaycan, Türkiyə və Pakistan arasında birgə istehsal sahəsinin qurulması və onun Qarabağda yerləşməsi də gündəmdədir. Hər halda tərəflər arasında kifayət qədər geniş mövzular müzakirə ediləcək".

**Kənan**

# Hərbçilərin maaş problemini kim "yaradıb"?

## Rey Kərimoğlu: "Günah birbaşa Maliyyə Nazirliyinindir"



**Hərbçilərin maaş problemi həllini tapdı. Müdafiə nazirinin müvafiq əmrinə əsasən hərbi qulluqçuların vəzifə maaşlarına müddətli əlavələr müəyyən edilib. Nazirliyin Mətbuat Xidmətindən bildirilib:**

Əmrə əsasən, Azərbaycan Ordusunun Ermənistanla dövlət sərhədində və Azərbaycanın Qarabağ bölgəsində Rusiya Federasiyası sülhməramlı kontingentinin yerləşdirildiyi zonaya bitişik ərazilərdə hərbi xidmət keçən hərbi qulluqçuların vəzifə maaşlarına 100 faiz həcmində müddətli əlavələr təyin edilib.

"İşğaldan azad edilmiş və hazırda infrastruktur qurulmayan ərazilərdə hərbi xidmət keçən hərbçilərin vəzifə maaşlarına isə 50 faiz həcmində müddətli əlavələr təyin olunub.

Qeyd edək ki, əmr cari ilin yanvar və fevral ayları üçün ödəniləcək pul hərbçilərin maaşlarına əlavə olunacaq. Xatırladaq ki, bir müddət öncə hərbçilərin maaşlarının azaldılması böyük səs-küyə səbəb oldu. Baş verənlər geniş narazılıq yaratdı. Müxtəlif müzakirələr aparıldı, etirazlar edildi.

**Sözügedən əmri "Şərq"ə dəyərləndirən Qarabağ qazisi Rey Kərimoğlu hərbçilərin əmək haqlarının azaldılmasını davamlı olaraq pislədiyini söyləyib:** "Məsələnin Ali Baş Komandanın diqqətinə çatdırılması üçün əlimizdən nə gəlibsə etmişik. Hətta dövlət strukturlarının rəhbərləri ilə müəyyən görüşlərimiz də oldu. Bizə bildiriblər ki, baş verənlər Prezidentə çatdırılıb. Çox şadam ki, ön cəbhədə xidmət göstərən hərbçilərin əmək haqları bərpa edildi. Ümid edirəm ki, həqiqətən də belə davam edəcək. Sırf ön cəbhədə xidmət etdikləri üçün hərbçilərin ikiqat maaş alması onların haqqıdır. Ona görə də çox sevinirəm. Bilirdik ki, cənab Prezident bu olaylardan xəbərdar olan kimi müsbət qərar qəbul edəcək. Bu günə qədər baş verən bütün hadisələrdə olduğu kimi yenə də ölkə başçısı xəbər tutar-tutmaz problem həllini tapdı. Hadisə dəqiq araşdırıldıqdan sonra bəlli oldu ki, Müdafiə Nazirliyinin baş verənlərdə günahı yox idi. Günah birbaşa Maliyyə Nazirliyinindir. Problem nazirliyin rəhbəri Samir Şərifovdan qaynaqlanırdı. Hətta deyərdim ki, bu, sabotajdır".

**Yeganə Bayramova**

# İlk dəfə Ombudsman hüquq müdafiəçisini ziyarətə gəldi



**Novella Cəfəroğlu:** *"Səbinə xanım məni çox sevindirdi, tək mən yox, işləyənlərin hamısı belə qiymətləndirilməlidir"*

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri, hüquq müdafiəçisi Novella Cəfəroğlunu 80 illik yubileyi münasibətilə təbrik edib.**

Ombudsman Aparatından bildirilib ki, Səbinə Əliyeva ölkəmizdə insan hüquqlarının müdafiəsi, vətəndaş cəmiyyətinin inkişafı istiqamətində fəal iştirakına görə N.Cəfəroğluna təşəkkürünü bildirib, ona fəxri fərman təqdim edib.

**Görüşlə bağlı təəssüratlarını "Şərq"lə bölüşən hüquq müdafiəçisi Novella Cəfəroğlu Ombudsmanın ziyarətindən məmnun olduğunu diqqətə çatdırıb. O qeyd edib ki, bu ziyarət ölkəmizdə ilk dəfədir ki, baş tuturdu:** "Təbrik və fəxri fərman üçün ilk olaraq Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevaya təşəkkürümü bildirirəm. Bu məni həddindən artıq çox sevindiridi. Təbii ki, bunun əsas özəlliklərdən biri birinci dəfə olması idi. Ümumiyyətlə, Səbinə xanımla bizim intensiv əlaqələrimiz olur. Hər zaman səbrlə bizi dinləyir və ona hər bir sözü rahatlıqla deyə bilirik. İşə anında müdaxilə edir və çalışır ki, bizə köməklik etsin. Hətta yerindəcə də köməklik edir. Çox saf və gözəl xanımdır. Onun komandası da çox gözəl işləyir. Biz ondan qabaq da Ombudsmanla çox yaxşı işləyirdik. Amma Səbinə xanımın gəlişi, doğrudan da, bizim Ombudsman haqqında təəssüratımızı tamamilə dəyişdi. Ombudsman Aparatına və Səbinə xanıma xüsusi minnətdarlığımı bildirirəm. Təbrik etməyi və fərman verməyi, məni çox məmnun etdi. Birinci dəfədir ki, bu cür görüş baş tuturdu. İstərdim ki, gələcəkdə bu cür hallar tez-tez yaşansın. Həqiqətən də işləyənlərin hamısına bu cür təbriklər və fəxri fərmanlar versinlər. Çox istərdim ki, tək mən yox, işləyənlərin hamısı qiymətləndirilsin".

**Aynurə Pənahqızı**



## ABŞ daha rejimləri devirməyəcək, çünki xeyri yoxdur

### Blinken qeyd edib ki, hazırkı hökumət demokratiyanı dəstəkləməkdən imtina etmir

**ABŞ bundan belə rejimləri devirərək demokratiyanı güclə yeritməkdən əl çəkəcək. Çünki bunun artıq heç bir nəticəsi yoxdur.**

Sputnik Azərbaycan-ın məlumatına görə, bunu ABŞ dövlət katibi Entoni Blinken deyib.

Amerikalılara televiziya ilə müraciətində o qeyd edib ki, hazırkı hökumət demokratiyanı dəstəkləməkdən imtina etmir.

"Ancaq biz onu bahalı hərbi əməliyyatlar və ya avtoritar rejimləri güclə yıxmaq yolu ilə təşviq etməyəcəyik. Keçmişdə bu cür taktikanı sınadıq, niyyətimizin nə qədər xoş olmasına rəğmən, bu taktika işləmədi", - dövlət katibi deyib.

Onun sözlərinə görə, Vaşinqton bunu "başqa cür" edəcək, islahat və demokratiya cəhdlərində nümunə olmaqla.

*Xatırladaq ki, Münhen konfransında ABŞ prezidenti Co Bayden "Amerikanın dünya arenasına qayıtdığını" bəyan etmişdi. Onun xarici siyasətində əsas yeri isə Avropa ilə əməkdaşlıq tutacaq.*





# Prezident tamam müxalifətə keçdi

### Paşinyanla Sarkisyanın artıq eyni komandada olması mümkün deyil

Ermənistanın Baş naziri Nikol Paşinyanın Onik Qasparyanın ordunun baş qərargah rəisi vəzifəsindən azad edilməsi barədə prezidentə göndərdiyi vəsatət Ermənistanda yeni siyasi gərginlik yaradıb. Bundan sonra Prezident Armen Sarkisyanın vəsatəti geri göndərməsi, baş nazirin isə qərarından əl çəkməməsi siyasi böhranı kritik həddə çatdırıb.

Paşinyanın tərəfdarları isə vəsatəti imzalaması üçün prezidentə təzyiq göstərir. "Mənim addımım" fraksiyasından olan deputat Vaaqn Ovakimyan Armen Sarkisyana impiçment tətbiq olunacağını istisna etməyib. O bildirib ki, indiki halda A.Sarkisyan öz səlahiyyətlərini özbaşına həyata keçirib. Bu, ölkədə sabitliyin pozulmasına gətirə və dövlət təhlükəsizliyini təhlükə altında qoya bilər: Dünən isə Armen Sarkisyan Paşinyanın Qasparyanın vəzifəsindən kənarlaşdırılması ilə bağlı vəsatətini ikinci dəfə imzalamayıb. Beləliklə, Sarkisyan və Paşinyan arasında gərginlik növbəti mərhələyə qədəm qoyub.

**Ermənistandakı prosesləri "Şərq"ə şərh edən politoloq Əhməd Əlili bildirib ki, hazırda Sarkisyanın əlinə Ermənistanda aparıcı lideri olması üçün böyük fürsətlər düşüb:** "Paşinyan Armen Sarkisyana bildirdi ki, ya bu sənədi imzalamalısınız, ya da ki, özünüzü müxalifətə keçmiş elan etməlisiniz. Həmin anda Sarkisyan məsələni dəyərləndirmədi. Beləliklə, prezident və baş nazir arasında gərginlik artdı.

Bundan sonra hər ikisinin bir komandada olması mümkün olmayacaq. Görünən odur ki, Sarkisyan özünü uzun müddətdir, Ermənistan lideri kürsüsündə görmək arzusundadır.

Ən real namizədlərdən biri də elə o idi. A.Sarkisyan hazırda hesab edir ki, erməni xalqı keçmiş liderləri görmək istəmir, Paşinyanı isə məğlub biri kimi qəbul etmirlər. Ona görə də Sarkisyan özünü əsas lider kimi görür və düşünür ki, hazırda əlinə yaxşı fürsət düşüb.

Bu istiqamətdə irəliləmək və gərginlik yaratmaq, Paşinyanı uzaqlaşdırmaqla özünün Ermənistanda lider olması üçün şərait qurmaq istəyir.

O, planlarını bu istiqamətdə həyata keçirmək fikrindədir".

**Yeganə Bayramova**

# Xankəndiyə 5-6 min erməni ancaq gətirilib

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının sifarişi ilə 2021-ci il yanvarın 22-də aparılmış araşdırmaya görə, 44 günlük müharibə zamanı Qarabağdan Ermənistana qaçan erməni ailələrin 85 faizi geri qayıtmaq istəmir.



15 faiz erməni ailəsi isə ya Qarabağın böyük şəhərlərinə - Xankəndi, Xocavəndə qayıtmağı, ya da Ermənistanın böyük şəhərlərində qalmağı düşünür. Məlumat üçün bildirək ki, Rusiya Müdafiə Nazirliyi sülhməramlıların müşayiəti ilə indiyədək Qarabağa 50 mindən artıq ermənin gətirildiyini bəyan edib. Belə çıxır ki, rusların açıqladığı rəqəm heç də reallığı əks etdirmir. Görünür, ruslar ermənilərin Qarabağa gəlişini stimullaşdırmaq, təbliğat aparmaq məqsədilə şişirdilmiş rəqəm açıqlayırlar.

## Aydındır ki, Rusiya öz məqsədləri üçün rəqəmləri şişirdir

**Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu "Şərq"ə deyib ki, BMT-nin araşdırması daha mötəbər mənbə hesab olunmalıdır.** Partiya sədrinin sözlərinə görə, Rusiya Qarabağda öz sülhməramlı missiyasını davam etdirmək, bölgədə daha uzun müddət qalmaq üçün Xankəndi və ətrafda erməni kontingentinin "böyük" olduğu görüntüsünü yaradır: "Əslində bizə də məlumdur ki, Qarabağa 50-60 min erməni qayıtmayıb. Ümumiyyətlə, Qarabağda nə qədər erməni olub ki? Ermənistanda 90 min adam qaçqın kimi qeydə alınıb, 50 min də Rusiya əlavə edib. Belə çıxır ki, Qarabağın dağlıq ərazilərində 140-150 min erməni var imiş?! Halbuki, Ermənistanın indiki real əhalisi 1.5 milyondur. Aydındır ki, Rusiya öz məqsədləri üçün ermənilərlə bağlı rəqəmləri şişirdir. Çox güman ki, Xankəndiyə 5-6 min erməni ancaq gətirilib. Rəsmi Bakı BMT-nin araşdırmalarını əsas götürərək Rusiya sülhməramlılarına qarşı mövqe sərgiləməlidir. Bəyan etməliyik ki, artıq onların burada görə biləcəyi bir iş qalmayıb. Əgər ermənilərin 85 faizi Qarabağa köçmək istəmirsə, ruslar orada nə gəzir?! Madam ki, belə ziddiyyət meydana çıxıb, Qarabağa köçürülən ermənilərlə bağlı ciddi araşdırma aparmalıyıq".

***S.Cəlaloğlu bildirib ki, Rusiya azərbaycanlıların bugünədək həmin bölgələrə köçürülməsinə də imkan vermir:*** "Bizimkilər ora gedəndə görəcəklər ki, Qarabağda çox az sayda erməni yaşayır. Moskva bu həqiqəti gizli saxlamaq üçün prosesi mümkün qədər uzadır. Ermənilər heç vaxt Qarabağa qayıtmayacaqlar. Bilirlər ki, bura qayıtsalar, törətdikləri cinayətlərə görə, mütləq qanunlarımız qarşısında cəzalarını alacaqlar".

**İsmayıl Qocayev**

# Lənət olsun sənə, virus!

## Amansız xəstəlik millətin bir işığını da söndürdü










## Koronavirusla uzun sürən mübarizə təkcə Dilavər müəlləimin deyil, hamımızın məğlubiyyəti ilə bitdi

**Azərbaycanın tanınmış tarixçi-alimi, AMEA-nın Tarix İnstitutunun "Azərbaycanın orta əsrlər tarixi" şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Dilavər Əzimli dünən 62 yaşında koronavirusdan dünyasını dəyişib. Tanınmış alim bir müddət əvvəl Fövqəladə Hallar Nazirliyinin Zığ qəsəbəsində yerləşən modul tipli xəstəxanasına yerləşdirilmişdi. Ancaq bir aydan çoxdur klinikada ciyərlərindən müalicə alan tarixçinin həyatını xilas etmək mümkün olmayıb. Xatırladaq ki, alim uzun müddətdir EKMO tibbi aparatına qoşulu vəziyyətdə idi.**

Dilavər Əzimli 1959-cu il dekabrın 5-də Cəlilabad rayonunun Ağdaş kəndində anadan olub. 1987-1992-ci illərdə Bakı Dövlət Universitetinin Tarix fakültəsini fərqlənmə diplomu ilə bitirib və təhsilini həmin fakültənin aspiranturasında davam etdirib. 1992-1994-cü illərdə Xarici İqtisadi Əlaqələr Nazirliyində aparıcı mütəxəssis vəzifəsində işləyib. 2004-cü ilədək Azərbaycan mətbuatında müxtəlif qəzet və jurnallarda çalışıb. Eyni zamanda Azərbaycan Dövlət Pedaqoji Universitetində "Türk və Şərqi Avropa xalqları" kafedrasında müəllim işləyib. "Beynəlxalq Osmanlı Öncəsi və Osmanlı Dövrü Araşdırmaları Komitəsi"nin üzvü, "Dünya Uyğarlığı içərisində Türk uyğarlığı" beynəlxalq türk qurumunun İdarə Heyətinin Azərbaycan təmsilçisi, Bütöv Azərbaycan Ocaqlarının ideologiya üzrə başqan müavini idi. Alimin 125 məqaləsi, bir monoqrafiyası və bir kitabı işıq üzü görmüşdü. Dilavər Əzimli həm də milli-azadlıq hərəkatının fəallarından biri olub. Tarixçinin xeyli müddət komada qaldıqdan sonra dünyasını dəyişməsi xəbəri ailəsi, dostları, yaxınları ilə yanaşı, ölkə ictimaiyyətini, məsləkdaşlarını, onu tanıyan hər kəsi kədərə qərq edib. Çoxsaylı tanınmış simalar sosial şəbəkə hesablarında dəyərli tarixçi-alimin vəfatından dərin məyusluq hissi duyduqlarını paylaşıblar.

**Elşad Paşasoy:** "Çox üzücü xəbər oldu. İnanırdıq ki, xəstəliyə qalib gələcək, amma olmadı. Azərbaycan daha bir aydınını, alimini, vətənsevər ziyalısını itirdi. Bir neçə il əvvəl vaxtsız itkisilə üzləşdiyimiz əzizimiz Hakim Qəmbərlidən sonra tariximizin daha bir qiymətli araşdırıcısı - Dilavər Əzimli həyata vida etdi. Allah rəhmət eləsin, biz sizi unutmayacağıq!

**Qorxmaz İbrahimli:** "Təkcə Azərbaycan milli tarix elminə deyil, eləcə xalqın özünə ağır itki üz verib. Bir millət dəyərli aydınını itirib. Dilavər bəy dostum, tələbə yoldaşım, milli azadlıq mübarizəsində arxadaşım idi. Çox erkən, işlərini hələ bitirmədən bizi tərk elədi. Bir daha nurlu üzünü görməyəcəyik əziz qardaşımızın...

COVİD-19 necə canlarımızı əlimizdən almağa davam edir. Dərin hüznlə millətimizə, ailəsinə və dostlarımıza başsağlığı verirəm. Allah rəhmət eləsin".

**Azər Sarıoğlu:** "Dünya daha bir insanı itirdi və daha da eybəcərləşdi. Ruhun şad olsun, gözəl insan. Bu dünya sənə layiq deyildi. Ən yaxşısı daha gözəl, layiq olduğun yerə - haqq dünyasına qovuşmaqdır. Ora sənin kimi saf, əsl insanların Vətənidir. Allahın rəhməti səninlə olsun!".

**Bahəddin Həziyev:** "Bu adam Dilavər Əzimlidir. Dillidilavər, xasiyyətcə mülayim, daxilən zəngin, gerçək bir ziyalı. Belə bir deyim var: "Alim olmaq asandır, insan olmaq çətin". Əlbəttə, vəzifədə oturub sərvət toplamısansa, elmi işini başqasına yazdırıb "alim" olmaq, universitetdə aylarla qapısını tanımadığın kafedra qamarlamaq asandır. Ancaq Dilavər Əzimli kimi gerçəkdən alim olmaq, illərlə gözünün nurunu tökübüb bir yerlərə gəlmək çox çətindir. Bilirsiniz, akademik titulunun rəsmi adı "Milli Elmlər Akademiyasının həqiqi üzvü" adlanır. Ancaq araşdırsan, görərsən ki, hamısı, ya da çoxu yalançı "alim"lərdir. Akademiyanın da, elmi təfəkkürümüzün də, müstəqillik şüurumuzun da, milli dəyərlərimizin də, türkçülüyün, Turançılığın da həqiqi üzvlərindən biri Dilavər idi. Tələbəlik illərimizin, hərəkat dövrümüzün yoldaşı, həmişə dostumuz, sevimlimiz haqqında keçmiş zamanda danışmaq istəmirəm. Bu namərd virus cəmiyyətdə Dilavəri asanlıqla tapdı, apardı. Nə qədər də yazsam, üzüntümü heç bir sözlə tam ifadə edə bilmərəm. Böyük itkidir".

**Bəybala Mirzəyev:** "Qısa ömrün son akkordu... Əminliklə deyə bilərəm ki, bu gün millətimizə gerçəkdən də böyük bir itki üz verdi. Qara xəbərin sarsıntısı necə ağır olurmuş, İlahi! "Dilavər rəhmətə getdi" sözünü dilə gətirmək, bu ölümə inanmaq, "Allah rəhmət eləsin" demək də olmur. "COVİD 19"-la uzun sürən mübarizə təkcə Dilavərin deyil, əslində bizim hamımızın məğlubiyyətimizlə bitdi. Çünki o, milli maraqlarımızın ən qətiyyətli müdafiəçilərindən, yorulmaz təbliğçilərindən biri idi.

Bilirəm, hamımız gec-tez öləcəyik. Çünki son ucu ölümlü dünyanın qonaqlarıyıq.

Amma Dilavər Əzimli kimi insanlarımızın mümkün qədər çox yaşamasını istərdim. Millətə fayda verən insanlarımızın uzun ömür sürməsi nə gözəl olardı.

Amma nə yazıq ki, dualarımız da kəsərsiz oldu.. Bax, beləcə, Bütöv Azərbaycan sevdalısını itirdik" .

**Bəxtiyar Tuncay:** "Kim deyirsə "Covid 19" boş şeydir, çox böyük səhv edir. Bu lənətəgəlmiş xəstəlik əziz dostumuz və gösəl insan Dilavər Əzimlini əlimizdən aldı. Üzüntümü dilə gətirməyə söz belə tapa bilmirəm. O, ölməməliydi, amma Allahın yazısını kimsə dəyişmək iqtidarında deyil. Hərəyə bir doğum və ölüm zamanı, yeri və şəkli müəyyən edilib. Kimsə onu dəyişmək, pozmaq, yenidən yazmaq gücündə deyil. İnşəallah, o biri dünyada yenidən görüşərik. Yaxşı adam idi, odur ki, cənnətdə olacağını düşünürəm".

**Elnur Elturk:** "Dilavər Əzimlini itirmək çox ağırdır. Dilavər bəy Azərbaycan Milli Azadlıq Hərəkatının fəallarından olub. Müstəqillik hərəkatının güclənməsində xüsusi rolu var idi. Belə dəyərli şəxsiyyəti itirmək cəmiyyət, millət üçün ağırdır.

Allah rəhmət eləsin!".

**Vəsilə Vahidqızı:** "İki gündən bir dostumuz Arzu Qaziyevadan həyat yoldaşı Dilavər müəllimi soruşurdum. Ağlaya-ağlaya danışırdı, ümidini itirməməyə çalışırdı, Allaha sığınırdı... Allah rəhmət eləsin! Dilavər Əzimli həqiqi alim idi, yaxşı adam idi. Onun dünyadan getməsi bir ailə üçün, cəmiyyətimiz üçün, elmimiz üçün böyük itkidir. Çox kədərliyəm".

**Zahid Nurəliyev:** "Bəlkə də qəddar görünə bilər, amma ölümə, xüsusən də yaxşı insanların ölümünə fəlsəfi yanaşıram. Ola bilsin, uşaq ikən atamı itirməyim belə kədərli xəbərlərə immunitet yaradıb məndə. Dilavər Əzimli işıqlı insan, dəyərli alim idi. Mən onun bu dünyadan daha yaxşı, daha işıqlı dünyaya getdiyinə inanıram. Sadəcə təəssüflənirəm ki, bir daha onunla qarşılaşmayacam, söhbət etmək imkanımız olmayacaq".

Tanınmış tarixçimiz Dilavər Əzimlinin vaxtsız ölümü həqiqətən hamımız üçün ağır itki oldu. Dilavər müəllim sadəcə tarixçi kimi deyil, həm də böyük ziyalı, sadə və səmimi şəxsiyyət, dövlətinə, millətinə qəlbən bağlı, vətənpərvər insan kimi də cəmiyyətin sevgisini, rəğbətini qazanmışdı. "Şərq" qəzeti olaraq hər daim tarixi bilgilərinə baş vurduğumuz dəyərli alimin ölümündən hədsiz kədərləndiyimizi ifadə edir, ailəsinə, yaxınlarına, onu sevənlərə baş sağlığı, səbr diləyirik. Məkanın cənnət olsun, Dilavər müəllim!

**İsmayıl Qocayev**

# "Qafqaz evi"ndən "Altılıq" platformasına keçid...



## Pənah Hüseyn: "Təcrübə göstərdi ki, böyük dövlətlərin iştirakı olmadan məsələni reallaşdırmaq qeyri-mümkündür"

**Bu gün Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu gürcü həmkarı David Zalkaliani ilə birgə mətbuat konfransı keçirib. Görüş zamanı "Altılıq" platforması barədə də danışılıb. Çavuşoğlu bildirib ki, Azərbaycanın təklif etdiyi "3+3" platforması regionda sülhü dayanıqlı etmək üçündür.**

Nazirin sözlərinə görə, "3+3" platformasının məqsədi logistik, iqtisadi, enerji sahələrindəki layihələrlə bağlı etibarlı addımlar atmaqdır.

"Biz bu məsələdə Gürcüstanın mövqeyinə hörmətlə yanaşırıq", - deyə M.Çavuşoğlu vurğulayıb. Aydın məsələdir ki, tərəflərdən dördü-Azərbaycan, Türkiyə, Rusiya və İran bu platformanı yaratmaq istəyirlər. Əlbəttə, region gücləri ilə müttəfiq olmaq Ermənistanın da üreyincədir. Bunun üçün sadəcə "ağlını başına yığmalıdır". Ən çox tərəddüd edən Gürcüstandır. O, torpaqlarını işğal edən Rusiya ilə eyni layihədə yer almaq istəmir. Türkiyə isə israrlıdır... Belə bir vəziyyətdə məsələnin necə həll olunacağı çoxlarını düşündürür. **Keçmiş baş nazir, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn "3+3" platformasına dair "Şərq"ə danışarkən layihənin üstünlüklərini açıqladı:** "Azərbaycan Prezidenti platforma barədə təklif edəndə söyləmişdi ki, beş dövlət birləşsin və əgər Ermənistan da işğalçılıq siyasətindən əl çəkərsə, "altılıq" yaranar. Əlbəttə, təşəbbüs reallaşacağı təqdirdə regionun taleyində mühüm dəyişiklik olacaq. Hətta platformanın təsiri bölgə miqyasından kənara da çıxa bilər. Ümumiyyətlə, "3+3" formatı son illərdə ən əhəmiyyətli regional təhlükəsizlik və iqtisadi əməkdaşlıq layihəsidir. O, ciddi geosiyasi və geoiqtisadi əməkdaşlıq vəd edir".

**P.Hüseyn, həmçinin Gürcüstanın məsələyə münasibətindən də söz açdı:** "Qafqaz evi" ideyası keçən əsrdən var idi. Sadəcə təcrübə göstərdi ki, böyük dövlətlərin iştirakı olmadan məsələni reallaşdırmaq qeyri-mümkündür. Həmin təklifin məhz "altılıq" platforması şəklində baş tutması regional əməkdaşlığın və təhlükəsizliyin qarantıdır. Beləliklə, fərqli geosiyasi mənzərə yaranacaq, böyük iqtisadi bazar formalaşacaq. Belə bir halın rəsmi Tbilisinin də maraqlarına cavab verməsi şübhəsizdir. Düzdür, NATO və ABŞ-la əlaqələri inkişaf etdiyinə görə, Gürcüstan konkret qərar verməkdə çətinlik çəkir. Ancaq məncə, Gürcüstanın da iştirakı ilə"altılıq" platformasının yaranması ehtimalı daha çoxdur".

**Kənan**

## Qazimizin gözləri açıldı

### Həkimə şokolad hədiyyə etdi




### İsrailli donordan Arif Hacıyevə göz bəbəyi köçürülüb

**İsrailli həkim Vətən müharibəsi qazisi Arif Hacıyevin gözünü əməliyyat edərək görmə qabiliyyətini bərpa edib.**

Bu barədə "Şərq"ə "YAŞAT Fondundan məlumat verilib. Bildirilir ki, A. Hacıyev müharibə zamanı aldığı zədədən huşunu itirib, eyni zamanda bir gözündən yaralanıb. İsrailli həkim tərəfindən onun üçqat prosedur əməliyyatı gerçəkləşib.

Qazinin gözünün içərisinə okulyar linza yerləşdirilib və israilli donordan təzə bir kornea *(transplantasiya edilmiş göz bəbəyi)* köçürülüb.

Əməliyyatdan öncə qazimizin bir gözünün görmə qabiliyyəti tamamilə itib. Həyata keçirilmiş uğurlu əməliyyat nəticəsində qazinin həmin gözünün görmə qabiliyyəti bərpa edilib və 20 faizə yüksəlib. Onun sağalma prosesinin getdikcə daha da yaxşılaşacağı bildirilir.

Qazimiz təşəkkür əlaməti olaraq həkiminə şokolad hədiyyə edib.





## Ağdamda vəzifəli şəxs minaya düşüb

### Onun baldırının yuxarı üçdə bir hissəsində amputasiya əməliyyatı aparıldı

**Ağdam rayonunun Novruzlu kəndi ərazisində minaya düşən Mexaniki Suvarma İdarəsinin rəisi Hafiz Əzimzadənin durumu haqda həkimi məlumat verib.**

Bərdə rayon Mərkəzi Xəstəxanasının həkim-travmatoloqu Xalid Məmmədov Sputnik Azərbaycan-a bildirib ki, az əvvəl Hafiz Əzimzadənin əməliyyatı uğurla başa çatıb: "Partlayış travması nəticəsində xəstə ağır vəziyyətdə Bərdə rayon Mərkəzi Xəstəxanasına gətirildi. Xəstə sağ aşağı ətrafında, baldırın aşağı üçdə bir hissəsində sümük əzələ sistemi dağılmış vəziyyətdə daxil olub. Yaranın həyat üçün təhlükə yarada biləcəyi nəzərə alınaraq, xəstənin baldırının yuxarı üçdə bir hissəsində amputasiya əməliyyatı aparıldı. Hazırda xəstə üçün reanimasiya tədbirləri davam etdirilir. Vəziyyəti ümumi orta ağır olaraq qalır".

*Qeyd edək ki, dünən saat 15 radələrində 1967-ci il təvəllüdlü Hafiz Əzimzadə Ağdam rayonunun işğaldan azad edilmiş Novruzlu kəndi ərazisində su quyularının bərpası işləri ilə məşğul olan zaman minaya düşüb.*

# Üç elmlər doktoru keçmiş deputat kimi pensiya ala bilmir

### Cümşüd Nuriyev manеə kimi Şəfa Mirzəyevin adını çəkdi

Vaxtilə parlamentdə mandat qazanan sabiq deputatlar millət vəkilliyi səlahiyyətlərini itirsələr də, qanunvericiliyə uyğun olaraq dövlətdən müavinət almalıdırlar. Lakin prosesin normal qaydada icra olunmadığına dair iddialar var.

Keçmiş parlament üzvləri arasında xüsusilə istiqlalçı deputatlar müvafiq qaydada pensiya ilə təmin olunmurlar. Bununla bağlı müvafiq siyahı da mövcuddur.

**Həmin siyahıda adı olan istiqlalçı millət vəkili, siyasi elmlər doktoru, politoloq Cümşüd Nuriyev baş verənlərin hansı səbəbdən qaynaqlandığına dair fikirlərini "Şərq"lə bölüşüb. Onun sözlərinə görə, Azərbaycanda Rusiyanın "5-ci kolonu"nun ən məşhur adamlarından biri sabiq deputatların pensiya almasını istəmir:**

"Həmin şəxslərin adını sənəd və sübutla yaxın zamanda açıqlayacam. Hələlik gözləyirəm ki, bəlkə, cənab Prezidentə düzgün məlumat verən olar. Dəqiq bilirəm ki, ölkə başçısının bu olanlardan məlumatı yoxdur. Faciə ondan ibarətdir ki, Milli Məclisdə müstəqilliyin əleyhinə səs verən keçmiş deputatlara və dünyasını dəyişənlərə bu gün də maaş verilir. Lakin pensiya alası olan 3 nəfər sabiq deputatın adını siyahıdan çıxarıblar. Əslində Əmək və əhalinin sosial müdafiəsi nazirini bu



**"Kimlər ki, Səfa Mirzəyevin yaxın adamlarıdır, onlar parlamentin keçmiş üzvü kimi pensiyalarını alırlar"**

olanlarda günahlandırmıram. Çünki Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyevin 2000-ci ildə bir məktubu var. Bilmirəm ki, bu şəxs hansı konstitusiya üzrə mütəxəssisdir? 1991-ci il 30 oktyabrda "Konstitusiya qanunu" qəbul olunub. Ali Sovet öz səlahiyyətlərini keçid dövrü üçün Milli Məclisə verib. 1995-ci ildə qəbul olunmuş konstitusiyanın 159-cu maddəsində də var ki, keçid dövrü hələ davam edir. Problemimiz odur ki, Rusiya bizi cəzalandırmaq istəyir, bunu Azərbaycandakı adamlarının "əli" ilə edir. Çünki Putin hakimiyyətə gələn kimi SSRİ-nin dağılmasını bir cinayət hesab etdi və bildirdi ki, SSRİ-nin dağılmasına səs verənlər "cinayətkardır". Bizdən bu səsvermənin heyfini çıxırlar.

Konstitusiya aktını hazırlayan professor Hacıbaba Əzimova, Baş nazirin müavini, sabiq təhsil naziri, ölkəmizə testi gətirən, qədim türk tarixini yazan Firudin Cəlilova, bir də mənə təqaüd verilmir. 3 nəfər elmlər doktoru pensiyanı ala bilmir. Bütün bunlar azmış kimi Səfa Mirzəyevin qardaşının Ali Məhkəmənin kollegiya sədri olmasına dair qərar çıxarılıb. Bütün bunlar absurddur".

**C.Nuriyev qeyd edib ki, Səfa Mirzəyev, guya, konstitusiya üzrə mütəxəssisdir, lakin qardaşının "əli" ilə Rusiyanın tapşırığını birmənalı şəkildə yerinə yetirir:** "Onların dərdləri budur ki, qeyd etdiyim 3 şəxsə pensiya verilməsin. Məqsədləri odur ki, Prezidentin əleyhinə gedək və onların tapşırığını yerinə yetirək ki, məsələ həllini tapsın. Ona görə də bu olanlarda Dövlət Sosial Müdafiə Fondunu günahlandırmıram. Kimlər ki, Səfa Mirzəyevin yaxın adamlarıdır, onlar parlamentin keçmiş üzvü kimi pensiyalarını alırlar. Ayıbdır! Bir dövlətin 3 istiqlalçı deputatına pensiya verməmək və onu Milli Məclisin üzvü kimi tanımamaq özbaşınalıqdır. Bu o deməkdir ki, Səfa Mirzəyevdən həm Ədliyyə naziri, həm Ali Məhkəmənin sədri, həm də digər hüquq-mühafizə orqanları qorxur. Adam özünü qanunverici orqanların rəhbəri kimi aparır. Yaxın zamanda başqa adları da açıqlayacağam. Bu zaman bəlli olacaq ki, Azərbaycan dövlətinin altına siyasi "bomba"nı qoyanlar kimlərdir".

**Yeganə Bayramova**



# Deyirlər toy olacaq

## İctimaiyyət nümayəndələri hesab edir ki, bir yol tapıb mərasimləri bərpa etmək lazımdır

Türkiyə toylara start verdi. Bizdən fərqli olaraq qardaş ölkədə regionlar, şəhərlər üzrə koronavirus xəritəsi tərtib edilib. Və yumşalmalara da xəritə üzrə gedilir. Hansı ərazilərdə ki yoluxma sayı azdır, risklər kiçikdir, oarda toy, nişan, digər şənlik məclislərinə, yas mərasimlərinə bəlli sayda insanın iştirakı ilə icazə verilir artıq.

Bizdə isə riskə gedib toy çaldıranlar hələ də məsuliyyətə cəlb edilir. Aydındır, anlayırıq, karantin rejimidir, qaydalar var, amma insanlar qəbul etmir artıq və qaydaları pozmağa meyillənirlər. Son günlərdə Şəmkir və Gəncədə toy mərasimi keçirənlərə "toy tutulub". Şəxslər cərimə edilib. Birinci dəfə deyil. Belə hallar hətta karantinin ən sərt dönəmlərində də vardı. Qısası, Azərbaycan insanı nə toydan əl çəkir, nə yasdan. Neyləyək, başqa Vətənimiz olmadığı kimi, başqa adət-ənənəyə də adaptasiya oluna bilmirik. Məşhur "Bəyin oğurlanması"nda deyildiyi kimi, "Xalqımın toy kimi adəti var!".

Yas mərasimləri ilə bağlı vəziyyət bir az fərqlidir. Ölənin ardınca kim ölüb ki?! İlk vaxtlar ailə üzvləri, yaxın qohumların dəfndə, yas mərasimində iştirakına icazə verilirdi. Son aylarda daha kimsə icazə-filan da istəmir. Yas düşmüş evə daha birbaşa gedirlər. Çox ziyarətçisi olan ölü də var, az ziyarətçisi olan da. "Camaatdan ayıbdı, el-oba nə deyər?!" anlayışı ilə ehsan verən də olur, "gəlib tutarlar, cərimə edərlər", qorxusu ilə ehsandan könülsüz vaz keçən də. Toy isə müşküldür. Həm də çox! "Evləri köndələn yar"da istedadlı aktrisamız Kübra Əliyevanın canlandırdığı obrazın dili ilə desək, analar da "indi deyirsən, mən oğlumun toyunda sındıra-sındıra oynamayım?!" təfəkkürü ilə illərlə gözləməyə razıdırlar, karantin bitsin, təki toyda sındıra-sındıra oynasınlar.

Bir az başqa tərəfdən də baxaq, toy mərasimlərinin keçirilməməsinə. Toy mərasimlərindən böyük bir sektor faydalanırdı. Şadlıq evləri, orada çalışanlar - müdiriyyətdən başlamış ofisiantına, xadiməsinə, aşbazına, "parkovka" gözətçisinə kimi, həmçinin də müğənnilər, tamadalar, rəqqasələr. Toy evi də azdan-çoxdan gəlir əldə edirdi. Qohumlar, başqa dəvətlilər səxavətli davranıb yaxşı nəmər salırdısa, ailələr girov qalmaqdan qurtulur, oğlan evi toy xərcini bağlayır, qız evi də kredit götürdüyü cehizin pulunu ödəyirdi. Hə, deməli, mebel mağazaları da ziyandadır. Toy yoxdu, mebel alan da yoxdu. Ət biznesmenləri, broyler fabrikləri və ümumiyyətlə qida sektoru (masaya 100 cür təam düzülürdü, ondan) da ziyandadır. Hansı tərəfdən baxsan, ziyana uğrayanları görürük. Demoqrafik problemdən heç danışmayaq. Amma psixoloji gərginlikdən danışmalıyıq. Çünki toysuz cəmiyyət bədbinliyə məhkumdur.

**Komitə sədri anons verdi, deputatlar dəstəklədi**

Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı KİV-ə açıqlamasında deyib ki, dini mərasimlər və toyların təşkilinin bərpası ilə bağlı müvafiq addımlar atılacaq. M.Qurbanlı bildirib ki, toy və yas mərasimlərinin keçirilməsinə icazə verilməsi operativ qərargahın səlahiyyətindədir: "Həmin qurum bununla bağlı tibb mütəxəssislərinin pandemiya ilə bağlı yaranmış vəziyyətə dair qiymətləndirməsini nəzərə alaraq qərarlar qəbul edəcək".

**Toy məsələsi millət vəkillərini də narahat edir. Millət vəkili, iqtisadçı Vüqar Bayramov Sputnik.az-a açıqlamasında toy sektorunun çalışmamasının fəsadlara səbəb olduğunu deyib:** "Toy mərasimlərinin bərpası ilə bağlı uzun müddət müzakirələrin aparılmasına baxmayaraq bu sferada hələ də açılmaya gedilmir. Daha yaxşı olardı ki, bəlli standartlarla bu sahədə də aktivlik bərpa edilsin. Rəsmi statistikaya görə, turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda 78,2 min, istirahət, əyləncə və incəsənət sahəsində isə 81,5 min vətəndaş çalışır. Ümumilikdə ictimai iaşə və xidmət sektoru ilə bağlı olan sözügedən iki sahədə 160 minə yaxın rəsmi çalışan işçi var. Ticarət, nəqliyyat vasitələrinin təmiri sahəsində isə 706 min vətəndaşımız işlə təmin olunub. Göründüyü kimi, iqtisadi açılım məşğulluq baxımından da vacib hesab olunur".

**Millət vəkili Fazil Mustafa da uzun müddətdir karantin qaydaları ilə bağlı mövcud vəziyyətdən narazılığını bildirir. Millət vəkili belə bir status da paylaşmışdı:** "Toylara icazə verilmir, amma restoranda 100-200 adam eyni anda əyləşir. Xəstəlik yayılacaqsa, elə restoranda da yayılacaq". Millət vəkili bu fikirdədir ki, Türkiyədəki kimi bizdə də müəyyən sayda insanların iştirakı ilə toylara icazə verilə bilər:

- İnsanların bir ildən çoxdur ki, toyları təxirə salınıb. Ölkədə müəyyən sahələrə qoyulan qadağalar iş yerlərinin bağlanması, insanların iş yerlərindən çıxarılması ilə nəticələnir. Sahibkarlar da burada məcbur qalıb bunu edirlər. İnsanlara müəyyən qadağalar qoyulub. Maska taxılması, sosial məsafə qaydalarına riayət edilməsi və dezinfeksiya məhlullarından istifadə mütləqdir. Bunlar gözlənilməklə qonşu ölkədə olan praktikanın müəyyən sayda insanların iştirakı ilə Azərbaycanda da tətbiqi mümkündür. Müəyyən sayda insanlar restoranda 1-2 saatlıq toy məclisi təşkil edə bilər. Bunun üçün qaydalar hazırlanmalı və bu istiqamətdə maarifləndirmə işləri görülməlidir.

**İnsanların psixologiyası pozulub**

**İctimai xadim Azər Həsrət "Şərq"ə açıqlamasında qeyd etdi ki, toy məclisləri, yas mərasimləri ilə bağlı müəyyən yumşalmalara gedilməlidir:**

- Ehtiyatı əldən verməmək şərti ilə müəyyən yumşalmalara gedilməlidir. Avtobuslarda onsuz da basa-basdır. Şəhərdə nəqliyyat sektorunda xaos yaşanır. Nəinki pik saatlarda, ümumiyyətlə, günün hər saatında şəhərdə avtomobil idarə etmək böyük bir əzaba çevrilib. Metro bir ilə yaxındır qapalıdır. İnsanlar məcburdur, avtobuslara minir, şəxsi avtomobillərdən, taksi xidmətindən istifadə edir. Ona görə də yollarda dəhşətli sıxlıq yaşanır, sərnişinlər avtobusda ağız-ağıza dayanır. İnsanlar arasındakı sıxlıq azalmır, əksinə, artır. Məktəblər açıldı, heç bir fövqəladə hal yaşanmadı. Bütün bunların fonunda yoluxma sayında gah azalma, gah da artım müşahidə edilirsə, deməli, yoluxma statistikasındakı dəyişmələrə səbəb nə toylardır, nə də yas mərasimləri. Yas mərasimləri onsuz da keçirilir. Bəzən bir mərasimə 100 nəfər qatılır. Tibbi maska taxılmasına əməl edən də var, etməyən də. Amma toylar keçirilmir. Hardasa, kimlərsə gizli mərasim təşkil edir, gah müəyyənləşir, gah müəyyənləşmir, bunları hesaba almayaq. Toyların keçirilməsinə qadağanın hələ də qüvvədə qalması ilk növbədə insanların psixologiyasına mənfi təsir edir. Məlumdur ki, insanın xəstəliyə qalib gəlməsində əhval-ruhiyyənin yüksək olması böyük əhəmiyyət daşıyır. Xəstəliyin müalicəsi üçün insanların normal həyata qayıtması vacibdir. İnsanlar şənlənmək, bir araya gəlmək istəyir. Bu, adi insani istəklərdir. Deyirlər, toyların keçirilməsinə icazə verilsə, karantin qaydaları pozulacaq, kimlərsə sərxoşluq edəcək, məsafə saxlamaq mümkün olmayacaq. Məntiqsiz yanaşmadır. Karantin qaydalarını pozanlar indi də var. İnsanlar, bayaq dediyim kimi avtobuslarda ağız-ağızadır. Sosial məsafədən danışmağa dəyməz. Sərxoşluq edənlərsə, indi də edir. Qapanmalar insanları depressiyaya salır, bədbinlik yaradır. Ona görə də hesab edirəm ki, bu sahənin mütəxəssisləri bir yol, üsul tapıb toy məclislərinin keçirilməsi üçün təkliflərlə çıxış etməlidir. Vəziyyət bundan artıq davam edə bilməz. Dəyişiklik mütləq olmalıdır, yumşalmalara gedilməlidir.

**Qapanmalar insanları depressiyaya salır, bədbinlik yaradır**

**Məlahət Rzayeva**




## Koronavirusdan ölənlərin sayı artdı

### 319 nəfər yoluxub, 161 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 319 yeni yoluxma faktı qeydə alınıb, 161 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 5 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 235 333 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 229 143 nəfər müalicə olunaraq sağalıb, 3 230 nəfər vəfat edib, aktiv xəstə sayı 2 960 nəfərdir.

*Ölkədə son sutka ərzində 7 928, hazırkı dövrədək isə 2 618 808 test aparılıb.*

## Rusiya Azərbaycandan alma və pomidor idxalına qoyduğu qadağanı götürüb



**Rusiyanın Veterinar və Fitosanitar Nazarət üzrə Federal Xidməti ("Rosselxoznadzor") Azərbaycandan alma və pomidor idxalına qoyduğu qadağanı götürüb.**

Bu barədə "Report" qurumun internet səhifəsinə istinadən xəbər verir.

Məlumata görə, Azərbaycanın 8 alma və 19 pomidor istehsalçısı artıq məhsullarını Rusiyaya ixraz edə bilərlər. Qərar Azərbaycanın Qida Təhlükəsizliyi Agentliyinin zəmanəti ilə, habelə birgə videoyoxlamalar zamanı seçilmiş məhsul nümunələrinin karantin fitosanitar ekspertizasının nəticələrinə əsasən qəbul edilib.

## ÜST xəbərdarlıq edib

### Pandemiyanın 2021-də bitəcəyi real deyil



**ÜST rəsmisi Mayk Rayan koronavirusun ilin sonuna qədər başa çatacağının real olmadığını bildirib.**

Vəziyyətin peyvəndləmənin başladığı 10 həftə əvvələ kimi daha yaxşı olduğunu vurğulayan Ryan, virusun nəzarət altına alınmağa başlandığını söyləmək üçün çok erkən olduğu xəbərdarlığını edib. (medicina.az)

Rayan ÜST-ün virusun yayılmasının qarşısını almağa çalışdığını deyərək "Məsələ bizim virusu nəzarət altına almağımızdır. Amma hazırda nəzarət artıqlaması ilə virusdadır", - deyib.

ÜST-ün digər nümayəndəsi Maria Van Kerkhove isə pandemiyanın nə zaman bitəcəyinə dair hansısa təxminin olmadığını bildirib.



# Əlvida, Vahidə xanım!

## "Fəxrəddinin olmaması mənim üçün yetimçilik olardı"

**Xalq artisti Fəxrəddin Manafovun ailəsinə ağır itki üz verib.**

**Məşhur aktyorun Xalq artistinin həyat yoldaşı Vahidə Sadıqova 65 aşında xərçəng xəstəliyindən dünyasını dəyişib.**

**Vahidə xanımın son günlərdə səhhəti pisləşib və xəstəxanaya yerləşdirilib və dünən gecə saatlarında həmin xəstəxanada vəfat edib.**

Qeyd edək ki, o, Xırdalan qəbiristanlığında torpağa tapşırılıb.

Onu da deyək ki, mərhum Azərbaycan Dövlət Televiziyasında diktor vəzifəsində çalışıb.

**Xalq artisti F.Manafov həyat yoldaşının ölümü ilə bağlı açıqlamasında bu sözləri deyib:**

"Allah rəhmət etsin. Nə demək olar? Hamımıza çox ağırdır".

*"Şərq" olaraq məşhur xalq artistinin xanımı Vahidə Sadıqova ilə bağlı xatirələri araşdırıb tapdıq, onların bəzilərini təqdim edirik.*






Məlum olduğu kimi onların uşaqları olmayıb. Aktyorun xanımı isə müsahibələrinin birində jurnalistin "artıq neçə ildir ailə qurmusunuz, amma övladınız yoxdur" - sualına belə cavab vermişdi:

"Uşağın olmamasının səbəbi məndədir. Fəxrəddin isə dahi insandır. O bunu qətiyyən problem etmir. O, uşaq problemini həll edə bilər. Amma bu barədə eşitmək belə istəmir.

Mən Fəxrəddinə təklif etdim ki, uşağa görə başqasıyla evlənsin. O dedi ki, səndən olmayan övlad mənə lazım deyil"...

*Bir-birinə bir ömür sadiq qalan cütlüyün birgə həyat yolu 1979-cu ildən başlayır. Təqribən 42 il sonra Vahidə xanım ömründə ilk dəfə olaraq Fəxrəddin Manafovu əbədi tərk edir.*

**Vahidə xanım Fəxrəddin bəylə evliliklərindən bəhs edərkən belə deyirdi:**

"Biz onunla 1987-ci ildə ailə qurmuşuq. O da, mən də azad adamlar idik. Ona görə də inanmırdıq ki, bu birgəlik uzun çəkəcək. Ona görə toy da etmədik. Amma sonra necəsə əbədi oldu. Məncə, bizim düşüncələrimiz üst-üstə düşürdü.

Fəxrəddinin olmaması mənim üçün ən pis yetimçilik olardı".

Fəxrəddin Manafov indi Vahidə xanımsız fani dünya ilə üz-üzə, Vahidə xanım isə Fəxrəddinsiz ədəbi dünyadadır. Kim bilir, bəlkə də cismlər ayrı olsa da ruhlar və ürəklər birləşib?!

**Allah rəhmət eləsin!**

**Ağarza Elçinoğlu**



# İt, pişik kimi quzunu da gəzdirməyə çıxarmaq olar

## Polis o gənclərə heç bir müdaxilə etməməlidir

**Ötən gün sosial şəbəkələrdə iki nəfərin paytaxtın mərkəzində quzuya uşaq bezi taxaraq gəzdirməsi ilə bağlı videogörüntülər paylaşılıb.**

Bildirilib ki, həmin şəxslər ərazidə olan polis əməkdaşları tərəfindən bölməyə aparılıb. Polis profilaktik söhbət apardıqdan sonra onları sərbəst buraxıb.

**Qeyri-adi olay ilə bağlı öz düşüncələrini "Şərq"lə bölüşən "Altay" Sosial-Araşdırmalar Mərkəzinin rəhbəri Elçin Bayramlı deyir ki, necə olur ki, it və pişiyi gəzməyə çıxarmaq olur,** lakin quzunu yox?

"Bu məsələdə iki önəmli məqam var. Birincisi odur ki, gənclər fərqlənmək, qeyri-adi nəsə etmək və sosial şəbəkələrdə insanların diqqətini özlərinə çəkmək üçün belə hərəkətlər edirlər. Doğrudur, bu, normal bir hadisə deyil. Digər tərəfdən isə polis əməkdaşları bununla bağlı həmin şəxslərə hər hansı bir müdaxilə etməməlidir. Polisin vəzifəsi hüquq və asayişi təmin etmək, qorumaqdır. Bu şəxslər isə heç bir hüquq pozuntusu etməyib. Başqalarına və onların əmlakına zərər vurmayıb. Belə bir vəziyyətdə isə onlar günahsız hesab olunur. Ona görə də hüquq-mühafizə orqanlarının həmin adamlara müdaxilə etməsi gərəksizdir. Necə olur ki, it və pişik kimi ev heyvanlarını gəzməyə çıxarmaq olar, amma quzunu yox? Bu, nəyə əsasən müəyyən olunur? Ona görə də hər iki tərəfdə problem var. Birinci tərəf ona görə haqsızdır ki, şəhərin mərkəzində quzu gəzdirmək normal görünmür. İkinci tərəf, yəni polis həmin vətəndaş bunu edibsə də, şəxsə müdaxilə etmək, yaxud haqqında hər hansı bir tədbir görmək düzgün deyil"

**Aytac Ali**



# Balakəndə itkin düşən azyaşlı tapılıb

**"102" Zəng Mərkəzi Xidmətinə və Balakən Rayon Polis Şöbəsinə müraciət edən şəhər sakini bir qadın 6 yaşlı övladının yaşadığı ünvandan təsadüfən çıxması və axtarışlarının nəticəsiz qaldığını bildirərək tapılması üçün köməklik göstərilməsini xahiş edib.**

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən "Şərq"ə verilən məlumata görə, Polis Şöbəsinin Post Patrul Xidməti və Dövlət Yol Polisi bölməsinin əməkdaşları dərhal azyaşlının tapılması istiqamətində axtarış tədbirlərinə başlayıblar. Qısa zaman ərzində azyaşlı U.H şəhər ərazisində tapılaraq yaşadığı evində ailəsinə təhvil verilib.

Uşağın valideynləri övladlarının tapılaraq heç bir zərər görmədən onlara təhvil verilməsinə görə DİN rəhbərliyinə və Balakən Rayon Polis Şöbəsinin əməkdaşlarına minnətdarlıqlarını bildiriblər.

# Metro yaxın günlərdə işləyəcək

## Artıq müəyyən tədbirlərin görülməsi buna işarədir




**Mart ayının 6-7-də Bakı metrosunun infrastrukturu normal iş rejimi şəraitində yoxlanılacaq.**

**"Bakı Metropoliteni" QSC-dən verilən məlumata görə, mart ayının 6-7-də həyata keçiriləcək tədbirlər çərçivəsində bütün metropoliten xətlərində qatarlar müəyyən edilmiş qrafikə uyğun qaydada hərəkət edəcək. Eyni zamanda hərəkətin təşkili, idarə olunması və nizamlanması, elektrik təchizatı, habelə digər mühəndis-texniki qurğu, avadanlıq və sistemlər adi iş rejimi vəziyyətinə gətiriləcək.**

*Bununla bağlı "Avtosfer.az" saytının baş redaktoru, nəqliyyat üzrə ekspert Elməddin Muradlı "Şərq"ə öz fikirlərini bildirib. O deyib ki, bu tədbirlərin metronun açılmasına dair bir işarə olduğuna ümid edirik:* "Hər bir halda bu, profilaktik tədbirdir və metronun işinin səmərəli təşkilinə yönəlib. Lakin bu, vətəndaşların, cəmiyyətin tanınmış, sayılıb-seçilən üzvlərinin irad və təkliflərindən sonra metronun fəaliyyətinin bərpası ilə bağlı addımlar atılması ilə bağlı da ola bilər. Bu baxımdan düşünürəm ki, yaxın vaxtlarda həmin məsələ ilə əlaqədar yenilik ola bilər. Hərəkətin təşkili prosesindən anlayışı olan şəxslərin də etirafı və bildiyi kimi, bu gün metronun işləməməsi ictimai nəqliyyatdan istifadə edən insanların hərəkətinə çox böyük problemlər yaradır. Buna görə də yəqin ki, yaxın vaxt ərzində metronun açılması ilə bağlı xəbər eşidəcəyik".

**Ekspert metronun fəaliyyəti bərpa olunduqdan sonra hansı qaydaların tətbiq ediləcəyi barədə də məlumat verib:** "Düşünmürəm ki, metronun fəaliyyəti əvvəlki qaydada mümkün olsun. Hər bir halda müəyyən məhdudiyyətlər tətbiq ediləcək. Tövsiyə edirik ki, insanlar həmin qadağalara narazılıq etməsin. Çünki real vəziyyəti nəzərə almaq və buna uyğun işin qurulmasına imkan yaratmaq lazımdır. Pik saatlarda vaqonlarda sərnişinlər çoxluq təşkil edir. Buna görə də polis əməkdaşları 20-30 dəqiqə ərzində metroya girişi məhdudlaşdıra bilər. Hər bir vətəndaş bunu anlayışla qarşılamalıdır. Çünki içəridə sıxlıq olan zaman, təbii ki, digər vətəndaşları ora buraxmaq mümkün deyil. İstənilən halda həmin addımlar sağlamlığımızı qorumaq üçün nəzərdə tutulacaq".

**Aytac Ali**

# Baydenin danışdıqları "şou" deyildi

### *ABŞ və Avropa İttifaqının sərt sanksiyaları Rusiyaya böyük sıxıntılar yaşadacaq*



ABŞ və Avropa İttifaqı Rusiya müxalifətçisi Aleksey Navalnının zəhərlənməsi və həbsinə görə Moskvaya yeni sanksiyalar elan edib. Co Bayden Administrasiyası Amerikanın Moskva ilə münasibətlərində "çox fərqli" yanaşma nümayiş etdirəcəyini bildirsə də, əlavə edib ki, Kremlin "qəbulolunmaz davranışlarına" qərbli müttəfiqləri ilə vahid cəbhədən cavab veriləcək.

Vaşinqtondan bildirilib ki, ABŞ kəşfiyyatı Navalnının zəhərlənməsinin arxasında Federal Təhlükəsizlik Xidmətinin dayandığını "əminliklə" vurğulayır. Bununla əlaqədar Rusiyanın 7 rəsmisi üzərinə sanksiyalar qoyulur. Vurğulanıb ki, Bayden administrasiyasının Rusiya ilə təmaslarda "tonu" Tramp administrasiyasının münasibətindən "çox fərqli" olacaq: "Məqsədimiz Rusiya ilə sabit və proqnozlaşdırılan münasibətlərə malik olmaqdır. Ancaq bu, çətin olacaq. Çünki Avropa İttifaqının belə bir qənaətini bölüşürük ki, Rusiya avtoritarlıq istiqamətində hərəkət edir".

Kreml sözçüsü Dmitri Peskov isə sanksiya hədələrini rədd edib və Qərb dövlətinin məqsədlərinə çatmayacağını deyib. Rusiyanın Xarici işlər naziri Segey Lavrov isə bəyan edib ki, Moskva hər hansı yeni sanksiyalara qətiyyətlə reaksiya verəcək: "Əlbəttə, biz cavab verəcəyik. Hələ heç kim diplomatiyanın qarşılıq prinsipini ləğv etməyib".

**Tərəflər arasında yenidən gərginləşən münasibətləri "Şərq"ə təhlil edən Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev vurğulayıb ki, Baydenin seçki öncəsi Rusiyaya qarşı sanksiyalar tətbiq edəcəyi ilə bağlı bəyanatını "şou" adlandıranlar ciddi yanılıblar.** Politoloq hesab edir ki, Co Bayden Rusiyanın əl-qolunu bağlamaq niyyətindədir: "Respublikaçı senator Lindsi Qremin hazırladığı və "cəhənnəm sanksiyaları" adlanan paket bir neçə ay öncə Senatdan keçməsə də, Bayden paketdə nəzərdə tutulan sanksiyaları artıq tətbiq etməyə başlayıb. İlkin mərhələdə Rusiyanın bank, qiymətli kağızlar və əmanət banklarında olan hesablarına qadağalar qoyulacaq. Artıq proses başlayıb. ABŞ şirkətləri Rusiyanın energetika və hərbi sahədə fəaliyyət göstərən böyük şirkətləri ilə maliyyə əməkdaşlığına xitam verib. Bundan sonra Rusiya terrorizmi dəstəkləyən ölkələr siyahısına daxil ediləcək. Sanksiyalar Rusiyanı imperiya siyasətindən əl çəkməyə məcbur etmək üçündür. Bundan başqa sanksiyalar hərbi sənaye və energetika sahəsində də özünü göstərəcək. Məlumdur ki, Rusiya əsasən xammal ölkəsidir. Büdcəsinin böyük hissəsi karbohidrogen xammalın satışından və hərbi sənayedən formalaşır. Neft və təbii qazın satışı ilə bağlı məhdudiyyətlər davam edəcək. Ermənistan baş nazirinin "İsgəndər" ballistik raketləri ilə bağlı bəyanatını Rusiya hərb sənayesinə vurulan ən böyük zərbələrdən biri saymaq olar: "Paşinyanın bu bəyanatı verdikdən sonra təkzib etməsi heç nəyi dəyişməyəcək. Artıq beynəlxalq hərbi mütəxəssislər araşdırmalara başlayıblar".

**Siyasi şərhçiyə görə, Rusiyanın Suriya, Ukrayna və Cənubi Qafqazda hərbi müdaxiləsi bitməyənə qədər ABŞ təzyiqlərini davam etdirəcək:** "Bayden Rusiyanın Şimali Koreya və Venesuelaya dəstəyini neytrallaşdırmağa çalışacaq. Rusiyanın gələcək taleyi bizi də ciddi düşündürməlidir. Azərbaycan 3 tərəfdən düşmən və dost olmayan ölkələrin əhatəsindədir. Ölkədə İran və Rusiyanın yüzminlərlə heyranı və dəstəkçisi var. Birincilər, radikal məzhəb üzərindən fəaliyyət göstərənlər, ikincilər isə sovet nostalgiyası ilə yaşayan güclü agentura şəbəkəsidir. Ona görə də Türkiyə ilə yaxınlığımızı daha yüksək səviyyəyə çatdırmalıyıq. Yerevan-Moskva gərginliyinə rəğmən, Rusiyanın Ermənistanı daha müasir silahlarla təchiz edəcəyi şübhəsizdir. Ərazi bütövlüyümüzün və müstəqilliyimizin qarantı üçün NATO ilə əməkdaşlığa üstünlük verməliyik. Rusiya ciddi sanksiyalara görə, böyük sıxıntılar yaşayacaq. Bu gedişlə qonşu Gürcüstanın NATO-ya inteqrasiyası yaxın zamanlarda gerçəkləşə bilər. Bidzina İvanişvilinin yönəltdiyi siyasi qüvvələr məğlubiyyətə məhkumdur. Nikol Paşinyan bütün imkanları ilə Rusiyanın təsir dairəsindən çıxmaq üçün çalışır. Rusiyanın Qafqazdan birdəfəlik getməsi üçün tarixi şərait yaranıb. Üç Qafqaz ölkəsi mövcud durumu doğru dəyərləndirərsə, regionda əbədi sülh yarana bilər".

**İsmayıl Qocayev**

# "Paşinyanın tərəfdarları Kremlə qarşıdır"

### *Sabir Məmmədli: "İnsanlar bir azdan sonra Rusiyanın Ermənistanda "at oynatmasına" icazə verməyəcəklər"*



Ermənistanda vəziyyət günü-gündən pisləşir. Artıq Baş nazir Nikol Paşinyanla Prezident Armen Sarkisyan arasında ziddiyət yaşanmaqdadır. Əlbəttə, bunun bizə heç bir aidiyyəti yoxdur. Rəhmətlik Sabir demiş, necə tərac olurlarsa olsunlar, nə işimiz var...Amma müəyyən iddialara görə, düşmən ölkədə revanşist qüvvələrin bu qədər iddialı danışması təsadüfi deyil.

Rusiya öz forpostuna "yaşıl işıq" yandırıb. Əks halda narazı qüvvələr heç vaxt bu qədər cəsarətli ola bilməzlər. Əgər həqiqətən belədirsə, deməli, Kremlin sözü ilə əməli üst-üstə düşmür. Çünki Prezident Vladimir Putin başda olmqla ayrı-ayrı rəsmi şəxslər elə hey bölgədə sabitliyin, sülhün tərəfdarı olmaqla bağlı bəyanatlar səsləndirirlər. Yəni doğrudanmı, Moskva "ikili oyun oynayır"?

BDU-nun Jurnalistika fakültəsinin professoru, siyasi elmlər doktoru Sabir Məmmədli "Şərq"ə açıqlamasında səslənən iddialara münasibət bildirdi: "Ermənistandakı vəziyyətə təsir edən yegənə amil Rusiya faktoru deyil. Daxildəki narazı qüvvələr, həmçinin xaricdəki diaspor məğlubiyyətlə barışmaq istəmir. Və əlbəttə, belə olan halda Kreml də öz mövqeyini ortaya qoyur. O, bir tərəfdən mövcud situasiyadan Paşinyana qarşı təzyiq aləti kimi istifadə edir, digər tərəfdən isə Azərbaycana mesaj verir. Moskva öz mövcudluğunu göstərməklə Cənubi Qafqazda söz sahibi olduğunu demək istəyir. Lakin Rusiya Ermənistan cəmiyyətini nə qədər sıxışdırsa da, təzyiq bundan o tərəfə keçməyəcək. Yeni savaşın bərpa olunacağına inanmıram".

**S.Məmmədlinin fikrincə, vəziyyət ziddiyətləşsə, "çanaq Rusiyanın başında partlayacaq":** "Şimal qonşumuzun qarşıdurmanı davam etdirib, hərbi sferaya daşıyacağına inanmıram. Çünki ABŞ Prezidenti Co Baydenin Putinə kəskin münasibəti, Avropa Birliyinin və ABŞ-ın sanksiyaları, NATO-nun Qara dənizdə təlimləri, Ukraynanın fəallaşması göz qabağındadır. Üstəgəl, NATO Rusiyanın Cənubi Qafqazdakı fəaliyyətindən razı deyil və onu eksponsionist adlandırır. Odur ki, Moskva silahlı toqquşmaya çalışsa, bu onun regiondakı sonu olacaq".

**Professor, həmçinin rəsmi İrəvanın Rusiyaya münasibətindən danışdı:** "Biz ötən mitinqlərdə Paşinyan tərəfdarlarının kifayət qədər çox olduğunu gördük. Onların əksəriyyəti, bəlkə də hamısı Kremlə qarşıdır. İnsanlar bir azdan sonra Rusiyanın Ermənistanda "at oynatmasına" icazə verməyəcəklər. Hətta 102-ci hərbi bazanın mövcudluğu da sual altındadır. Üstəgəl, Avropa Birliyi də Rusiyanın Cənubi Qafqazda söz sahibi olmasını istəmir. Bir çox ölkələr onun regiona nəzarət imkanını ələ keçirmək istəyir. Deməli, Kreml bütün bunları nəzərə alaraq əsla "alova benzin tökməz"".

**Kənan**

## Texas maskaya "yox" dedi

"Yeni sistem daha əvvəl qəbul edilən bir çox məhdudiyyəti ləğv edir"



**Koronavirusun ən çox təsir göstərdiyi ABŞ-ın Texas ştatı maraqlı bir qərar verib. Yoluxanların və ölənlərin sayına baxmayaraq ştatın qubernatorunun açıqlamasına görə, əyalətdəki bütün məhdudiyyətlər, o cümlədən maskadan istifadə ləğv edilib.**

"Şərq" qəzeti xəbər verir ki, Texasda gələn həftədən maskadan istifadə məcburiyyəti aradan qaldırılacaq. Ştatın cümhuriyyətçi partiyadan olan qubernatoru Greg Abbottun "İndi Texası tamamilə açmaq zamandır" deyərək duyurduğu qərarda qapalı müəssisələrin də fəaliyyətinə icazə veriləcək. ABŞ-ın ən böyük əyalətlərindən olan Texasda bu günə qədər koronavirusdan ölənlərin sayı 43 mindən daha çoxdur. Ştat koronavirus ölümləri sırasında üçüncüdür. Bir müddətdir partiyasında məhdudiyyətlərin davam etdirilməsi səbəbi ilə tənqidlərə məruz qalan Abbott açıqlamasında "Çox texaslı məşğulluq fürsətlərindən məhrum qalıb. Kiçik müəssisələr xərclərini ödəməkdə çətinlik çəkir" deyərək qərarı qəbul etməsinin səbəbini izah edib. Abbott "COVİD"in bitməməsinə baxmayaraq, ştatdakı məhdudiyyətlərə ehtiyacın olmadığını söyləyib. Martın 10-dan qüvvədə olan yeni sistem daha əvvəl qəbul edilən bir çox məhdudiyyəti ləğv edir. Texasda bu günə qədər təxminən 5.7 milyon insan vaksinasiya olunub. Prezident Co Baydən hakimiyyəti isə məhdudiyyətlərin həlл də vacib olduğunu bildirib.

**Samirə**

## Lukaşenko Belarusun Rusiyaya birləşməsinin əleyhinədir

"Çünki Rusiyanın içində öz dövlətinin tamamilə "əriməsini" istəmir"



**Belarus Prezidenti Aleksandr Lukaşenko Rusiya ilə Belarusun birləşməsinə qarşı çıxıb. O bildirib ki, dünya o qədər dəyişib ki, Rusiya ilə Belarus arasında birləşmə ehtimalını ciddi şəkildə düşünmək ağılsızlıq olardı.**

Fevralın 22-də Soçidə Vladimir Putinlə görüşü barədə danışan Belarus lideri bildirib ki, müzakirə iki ittifaq dövləti kontekstində gedib.

"Münasibətlərimizin indi hansı səviyyədə olduğunu və gələcəkdə haralara qədər gedib çıxa biləcəyimizi müzakirə etmişik".

**Lukaşenkonun açıqlamasını "Şərq"ə dəyərləndirən politoloq Natiq Miri bildirib ki, Belarus xalqı Rusiya ilə birləşmənin tamamilə əleyhinədir. Ona görə də Lukaşenko belə fikir səsləndirib.**

Analitikin sözlərinə görə, Lukaşenko siyasi lider kimi Rusiya ilə birləşməklə Rusiyanın içində öz dövlətinin tamamilə "əriməsini" istəmir:

"Bu gün Lukaşenko müəyyən mənada nə qədər Rusiyaya möhtac olsa da, rəsmi Kremlin siyasətini çox gözəl bilir. O, anlamamış deyil ki, Rusiya heç bir postsovet ölkəsi ilə bərabərhüquqlu səviyyədə münasibətlər sistemi qurur. Rusiya kiminləsə münasibət qurmaq istəyirsə, həmin ölkəni özünün orbiti ətrafında fırlanmağa məcbur edir. Bu, Belarusa da aiddir. Əlbəttə, Lukaşenko da bunu çox yaxşı bilir. Ona görə də həmin reallıqları nəzərə alaraq belə fikirlər bildirib".

**Yeganə Bayramova**

## İctimai və dövlət maraqlarının müdafiəsi



İstifadəsiz qalan torpaqlarla bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev narahatlığını bildirib. Vətən müharibəsindən əvvəlki dövrlərdə bu vacib məsələyə toxunan prezident torpaq sahələrindən təyinatına uyğun istifadə edilməsinin zəruriliyini vurğulayırdı. Xatırladaq ki, bir neçə il Prezident istifadəsiz saxlanılan, təyinatının dəyişdirilməsinə cəhdlər edilən torpaq sahələri ilə əlaqədar müvafiq sərəncam imzaladı və aidiyyəti qurumlara sərəncamdan irəli gələn vəzifələrin həlli tapşırıldı. Hazırda vəziyyət təbii ki, ölkəmizin xeyrinə dəyişib.

# İşğaldan qurtulan torpaqların dəqiq təyinatı müəyyənləşməlidir

*"İstifadəsiz qalmış, ya da yararsız hala salınmış torpaq sahələri əkinə yararlı vəziyyətə gətirilməli, kənd təsərrüfatı təyinatlı olmalıdır"*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan 44 günlük müharibədə möhtəşəm qələbə qazandı və 30 ilə yaxın müddətdə işğal altında saxlanılan ərazilərini düşməndən geri aldı, ərazi bütövlüyünü, suverenliyini bütün ölkə boyu bərpa etdi. Bu o deməkdir ki, bizim əkib-becərmək üçün indi daha çox imkanlarımız var. Əlbəttə, işğaldan azad edilmiş ərazilərdə yenidənqurma, abadlıq, həmçinin torpaq sahələrinin dirçəldilməsi prosesi lazımi qaydada aparılarsa. Prezident də dəfələrlə vurğulayıb ki, əkinə yararlı torpaq sahələrindən digər məqsədlər üçün istifadə edilməməlidir. Azərbaycanın kənd təsərrüfatı sahəsində inkişafı yüksəldilməlidir ki, dövlətimiz idxal amilindən asılı vəziyyətə düşməsin. Bu, həm dövlət maraqlarının, eyni zamanda vətəndaşların, ümumilikdə ictimai maraqların müdafiəsi baxımından vacibdir. Məlumdur ki, idxaldan asılılıq dövlət büdcəsinə ziyandır, vətəndaş da bu halda idxal olunan məhsulların qiymətindən narazı qalır. Yerli istehsal zəifləyir, müəssisələr çalışmır, dövlət büdcəsindən idxal məhsullarının alınmasına xeyli vəsait sərf olunur. Yəni hansı tərəfdən baxsan, ziyanlı görünür. Bunun qarşısının alınması üçünsə ilk növbədə torpağın qədri bilinməlidir - əkinə yararlı, kənd təsərrüfatı təyinatlı torpaqlardan digər məqsədlər üçün istifadəyə yol verilməməlidir.

### Vətəndaşların pay torpaqlarına göz dikmək olmaz

Problemli vəziyyət həm də pay torpaqları ilə bağlı yaşanır. Bəzən vətəndaşa pay torpağını satmaq üçün şirnikləndirici təkliflər edilir. Vətəndaş da bəzən əsl məqsədi bilmədən, yaxud da maddi ehtiyac üzündən pay torpağını satmağa razılaşır. Beləcə pay torpaqlarının təyinatı dəyişir. Pay torpağını əkib-becərməklə, təsərrüfat yaratmaqla uzun müddətli, hətta dayanıqlı maddi gəlir əldə etmək imkanına sahib vətəndaş torpağını satdığı üçün təminatsız vəziyyətə düşür. Dövlət qurumları belə hallarla mübarizə aparmaqda maraqlıdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Hüquq şöbəsinin müdiri Teymur Şəkərəliyev "Ekspert saatı" proqramında çıxışı zamanı bildirib ki, son vaxtlar pay torpaqlarında yaşayış evlərinin, ictimai iaşə müəssisələrinin tikintisi aparılır, amma belə torpaqlarda bu halın baş verməsi yolverilməzdir. Onun sözlərinə görə, vaxtilə insanlara verilən pay torpaqlarında yalnız əkinçiliklə məşğul olmaq olar: "Qarşıya kənd təsərrüfatı təyinatı olan torpaqların sahəsinin azaldılması məqsədi qoyulub. Hər bir torpaq kateqoriyası dəyişdirilirsə, onun əsaslandırılması aparılmalıdır. Torpağın kateqoriyasının dəyişdirilməsi təşəbbüsünü irəli sürən torpaq mülkiyyətçiləri müvafiq qurumlardan bunun üçün rəy və icazə almalıdırlar. Bu prosedur aparılmadan bu kateqoriyalı torpaqlarda tikinti işlərinin aparılması yolverilməzdir".

Ümumiyyətlə, Vətən müharibəsində əldə etdiyimiz qələbə bir çox məsələlərə yeni baxış formalaşdırıb. O cümlədən də torpaq sahələri və vətəndaşların hüquqlarının qorunması baxımından.

Misal üçün, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən işğaldan azad olunan ərazilərdə bir çox əmlakın çöl inventarlaşdırma işləri tamamlanıb, bir neçə infrastruktur, nəqliyyat və təchizat, eləcə də torpaq sahələrinin inventarlaşdırılması başa çatdırılıb.

Bu barədə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin İqtisadi məsələlər üzrə İşçi Qrupun növbəti iclasında məlumat verilib.

Bildirilib ki, azad edilmiş torpaqlarda iqtisadi fəaliyyətin təşkili işlərinin əlaqələndirilməsi məqsədilə aidiyyəti dövlət orqanlarının nümayəndələrinin cəlb olunduğu İqtisadi məsələlər üzrə İşçi Qrup əmlakın inventarlaşdırılması, işğaldan əvvəl mövcud olan xəritələrin vektorlaşdırılması, habelə iqtisadi fəallığın dəstəklənməsi kimi proseslər üzərində işləyir.

Həmçinin, aidiyyəti qurumlar tərəfindən Qrupun sahəvi tədbirlər planının icrasına başlanılıb. Veb əsaslı, mətn və qrafiki komponentlərdən ibarət Qarabağ İnventar Proqramı hazırlanıb və dövr ərzində təkmilləşdirilib. Hazırda müvafiq dövlət qurum və təşkilatları ilə texniki inteqrasiya mühiti qurulur. Hətta meşələrin sərhədlərinin daha dəqiq müəyyən edilməsi üçün də meşə quruluşu işləri aparılır. Bunu da Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Hüquq şöbəsinin müdiri Teymur Şəkərəliyev bildirib. Şöbə müdiri qeyd edib ki, bu işlərin nəticəsindən asılı olaraq, meşələrin xəritələri müəyyən ediləcək. Bu barədə ictimaiyyət də mütəmadi məlumatlandırılacaq. Bu işin özü də keçmiş köçkünlərin doğma yurd-yuvalarına qayıdışı prosesində əhəmiyyətlidir. Evinə qayıdan vətəndaş malik olduğu torpaq sahəsinin təyinatını da biləcək, hansı ərazilərin dövlət nəzarəti altında olduğunu, hansı ərazidə təsərrüfatla məşğul olmağa icazə verilir, hara meşəlikdir, hara qoruqdur və sair bu kimi məsələləri artıq biləcək. Ən əsası da doğma elinə qayıdan əhali kənd təsərrüfatı sahəsində çalışmaq, öz fərdi təsəffüfatını yaratma imkanına sahib olacaq.

### Torpaqlardan təyinatı üzrə istifadə edilməlidir

**Bələdiyyələrin Fəaliyyətinin Təbliği Birliyinin sədri Vüqar Tofiqli "Şərq"ə açıqlamasında bildirdi ki, torpaq sahələrinin inventarlaşdırılması vacib məsələdir. Ölkə üzrə mövcud torpaq sahələrinin nə qədərinin dövlət balansında, nə qədərinin şəxsi mülkiyyət olduğu dəqiq bilinməlidir.**

- Azərbaycan artıq yeni bir dövrə, həm də çox böyük, əhəmiyyətli bir dövrə qədəm qoyub. Bunun başlıca səbəbi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun, onun igid döyüşçülərinin qazandığı parlaq qələbədir. Dünənədək nə olubsa, olub. Amma bundan sonra artıq qüsursuz fəaliyyət göstərilməlidir. Əkinə yararlı, kənd təsərrüfatının inkişafına səbəb olacaq torpaq sahələrində təyinatı üzrə istifadə edilməlidir. Bir neçə il əvvəl ozamankı Əmlak Məsələləri üzrə Dövlət Komitəsi sənədsiz evlərlə bağlı rəy açıqlamışdı. Orada bildirilirdi ki, qanunsuz tikililərlə bağlı ən pis vəziyyət Bakıda - Abşeron rayonunun idarəçiliyində olan torpaqlardadır. Bu ərazilərdə böyük yaşayış massivləri formalaşıb. Qanunsuz zəbt olunmuş, həmçinin istifadəsiz torpaqlarla bağlı son illər ciddi işlər aparılmağa başlandı. İstifadəsiz qalan torpaqların kənd təsərrüfatına yönəldilməsi ən məqbul variant sayılır.

Bakıda və Abşeron rayonu ərazisində kənd təsərrüfatı təyinatlı olan torpaqlarda tikilmiş və sahibləri bu günə qədər mülkiyyət hüquqları əldə etməmiş fərdi evlərlə bağlı da araşdırma aparılmalıdır. İstifadəsiz torpaq anlayışı başqadır, sənədsiz evlər məsələsi başqa. İstifadəsiz torpaq, mümkün qədər olmamalıdır. Hansı torpaqda ki əkib-becərmək, məhsul əldə etmək, iqtisadi, sənaye məqsədilə istifadə etmək olar, sənaye müəssisəsi tikmək mümkündür, onlar dövlət ehtiyacları üçün alına bilər. Bu zaman da orada məskunlaşmış əhaliyə dövlət tərəfindən kompensasiya ödənilir. Amma hansı ərazilər ki, kənd təsərrüfatı üçün yararsızdır, onları sənayeyə yönləndirmək də tutarlı bir mənfəət gətirməyəcək, üstəlik, həmin ərazilər yaşayış massivi kimi artıq formalaşıb, onları vətəndaşların mülkiyyəti kimi sənədləşdirmək əlbəttə, daha doğru qərardır. Ümumiyyətlə, kənd təsərrüfatı təyinatlı torpaqlardan istifadəyə ciddi yanaşılmalıdır. Bir çox hallarda əkinə yararlı torpaqlardan başqa məqsədlər üçün istifadə edilir. Torpaqlar ya istifadəsiz saxlanılır, ya da təyinatına uyğun olmayan şəkildə istifadə edilir. Bunların qarşısı ciddi alınmalıdır. Amma söhbət iqtisadi cəhətdən səmərə verməyəcək torpaqlardan gedirsə, niyə dövlət ziyana düşməlidir? Amma belə hal, kimlərəsə daha artıq əraziləri qanunsuz zəbt etmək üçün fürsət kimi görünməsin. Torpaq sahələri dövlətə lazımdır. Əgər kimsə torpaq sahəsini zəbt edib, lakin ondan istifadə etmir, buyursun, həmin torpaq sahəsini dövlətə qaytarsın. Dövlət ondan hansı məqsədlər üçün istifadə edəcəyini müəyyənləşdirər.

İstifadəsiz torpaq sahələrindən təyinatı üzrə yararlanmaq kənd təsərrüfatı sahəsində böyük irəliləyişə səbəb ola bilər. Necə ki, bu proses işğaldan kənarda qalmış ərazilərdə aparılırdı. İndi də işğaldan azad edilmiş ərazilərimizdə eynilə aparılmalıdır. İşğal müddətində istifadəsiz qalmış, ya da yararsız hala salınmış torpaq sahələri əkinə yararlı vəziyyətə gətirilməli, kənd təsərrüfatı təyinatlı olmalıdır. Bir neçə il əvvəl Goranboyda belə işlər aparılmışdı. Yararsız vəziyyətdə olan torpaq sahələrinin əkinə yararlı vəziyyətə gətirilməsi üçün yarğanlar doldurulmuşdu, yüksək keyfiyyətli hamarlama işləri aparılmışdı, sahələr təmizlənmişdi. Bütün bu işlər, şübhəsiz, işğaldan azad edilmiş ərazilərdə də aparılacaq. Bununla da vətəndaşlar fərdi təsərrüfat sahələri yaratmaq imkanı əldə edəcəklər. Əkin sahələrinin yararlı hala salınması həm dövlətə mənfəət qazandıracaq, həm də vətəndaşa.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

## Müsabiqə keçirilir, hər kəs istedadını yoxlaya bilər

### Azərbaycanda ilk dəfə "İlin Press Fotosu" adlı yeni layihəyə start verilir



**"Gilavar" Azərbaycan Foto Klubu Azərbaycanda ilk dəfə "İlin Press Fotosu" adlı yeni layihəyə start verir. Layihə çərçivəsində hər il "Azərbaycan Press Foto" adlı fotomüsabiqənin keçirilməsi nəzərdə tutulur.**

Fotomüsabiqə rəqəmsal kateqoriya üzrə 6 mövzu ətrafında keçiriləcək. Mövzular: Xəbər, Gündəlik həyat, Portret, Təbiət, İdman və Mədəniyyət. Xəbər və İdman mövzuları həm tək foto, həm də hekayə fotosu, digər mövzular isə yalnız tək fotodan ibarət olacaq. F**otomüsabiqə ilə bağlı fikirlərini "Şərq"ə danışan tanınmış jurnalist Azər Həsrət deyir ki, fotoqrafiya sahəsində uğur qazanmaq və mükəmməlliyə yiyələnmək istəyən şəxslər üçün həmin müsabiqə çox əhəmiyyətlidir:** "Mən düşünürəm ki, istənilən sahədə, xüsusilə də fotoqrafiya sahəsində bu cür yarışmaların keçirilməsi təqdirəlayiqdir. Çünki bu müsabiqələr insanlara istedadından uyğun şəkildə istifadə etməsinə şərait yaradır. Bəzən kənardan baxan adamlar deyir ki,"bu müsabiqələr nəyə gərəkdir?", "müsabiqələrin keçirilməsi mənasızdır". Belə fikirlər səsləndirən insanlar bilməlidir ki, mənasız deyə bir şey yoxdur. Müsabiqələrin keçirilməsi hər hansısa sahə ilə məşğul olan insanların həvəsləndirilməsi və inkişafı baxımından çox önəmlidir. İstənilən insan gördüyü işdə mükəmməlliyə can atır. Bu zaman insanlar həmin yolu qət edərkən başqaları tərəfindən dəyərləndirilmək istəyirlər. Belə olan halda adam mükəmməlliyə gedən yolda daha da sürətlənir. Bu cür müsabiqələrin keçirilməsi də məhz həmin məqsədlərə xidmət edir. Bu baxımdan hesab edirəm ki, foto sahəsində mükəmməlliyə getmək istəyənlər, iddia edənlər üçün belə bir imkanın olması çox vacibdir".

**Aytac Ali**

# "Elmlər Akademiyası"nda dəyişiklik edilir



**Bəxtiyar Məmmədov:** "Lazımi işləri vaxtında görməsək, yarana biləcək faciəyə görə məsuliyyət daşıyırıq"

**Natiq Cəfərli:** "Dövlət vəsaitinin qeyri-prioritet işlərə sərf edilməsi ciddi tənqid olunmalıdır"

Son iki həftədir Bakı Metropoliteninin "Elmlər Akademiyası" stansiyasının yanından keçəndə ona həm həsrət, həm tə təəccüblə baxıram. İntizarın səbəbi aydındır. Heyrətləndirici məqam isə həyata keçirilən təmir-tikinti işləridir. İlin, ayın bu günündə - hərbçilərin maaşları ilə bağlı problem yaşandığı bir vaxtda həmin metrostansiyanın restavrasiyasına vəsait ayrılması nə qədər prioritet ola bilər ki?

Özü də qapılarının aylardır sərnişinlərə bağlı olduğunu nəzərə alsaq, atılan addım təkcə məni yox, əhalinin böyük əksəriyyətini düşündürür. Metrostansiyaya elə baxmaqla kifayətlənəcəyik?!

**"Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəisi Bəxtiyar Məmmədov bu barədə "Şərq"ə açıqlama verib.** Onun sözlərinə görə, həyata keçirilən işlər labüd idi: "Hər işin öz vaxtı var. Bərpa işlərinin də artıq zamanı çatmışdı. Əgər biz mövcud qaydalara əməl edib, lazımi işləri vaxtında görməsək, yarana biləcək faciəyə görə məsuliyyət daşıyırıq. Restavrasiyanın nə qədər davam edəcəyini dəqiq deyə bilmərəm. Lakin ovaxtadək sərnişindaşıma bərpa olunsa, vətəndaşların təhlükəsizliyi tam təmin ediləcək. Biz bu barədə əvvəlcədən məlumat verməşdik".

**ReAL Partiyasının icraçı katibi, iqtisadçı-ekspert Natiq Cəfərli isə məsələyə differensial yanaşmağın tərəfdarıdır:** "Ciddi problem varsa, əlbəttə, təmir-tikinti işlərinin həyata keçirilməsi başadüşüləndir. Lakin söhbət ikinci, üçüncü dərəcəli proseslərdən, o cümlədən dizayndan gedirsə, onda ciddi suallar meydana çıxır.

Çünki "Bakı Metropoliteni" QSC illərdir ki, ziyana işlədiyini, dövlətdən dotasiya aldığını deyir. Dövlət vəsaitinin qeyri-prioritet işlərə sərf edilməsi ciddi tənqid olunmalıdır. Fəqət, dediyim kimi, əvvəlcə, məsələnin əhəmiyyətlilik dərəcəsi araşdırılmalıdır".

**Kənan Novruzov**



# Elə qidalar var ki...

### ...Xoşbəxtlik hormonunun səviyyəsini artırmaq mümkündür

Koronavirus epidemiyası insanların evdə daha çox vaxt keçirməsinə səbəb oldu. Belə olan halda bir çox insan qidaya "sığındı". Lakin sağlamlıq üçün düzgün qidalanma mühüm şərtdir. Bəzi qidaların içindəki maddələr sayəsində insana xoşbəxtlik verdiyi ortaya çıxıb. Müxtəlif elmi araşdırmalar nəticəsində bəlli olub ki, bu qidaları istifadə edənlərin bədənlərində xoşbəxtlik hormonları çoxalır.

İdmanla məşğul olmaq, keyfiyyətli protein qəbul etmək və düzgün qidalanmaqla serotonin, yəni xoşbəxtlik hormonunun səviyyəsini artırmaq mümkündür.

"Şərq" "Sabah.com"a istinadən insana xoşbəxtlik gətirən qidaları açıqlayır:

**Pomidor**

Pomidorda olan likopen adlanan antioksidant nevroloji qoruma təmin edir. Zeytun yağı ilə istifadə edilməsi tövsiyə olunur, çünki yağ likopenin sorulmasını artırır. Revmatizm üçün faydalıdır, yaşlanmanı gecikdirir, dəriyə təravət verir. Eyni zamanda xoşbəxtlik hormonunu artırır.

**Qara şokolad**

Qara şokolad beyində qan axınını gücləndirir, insanı enerjili edir və xoşbəxtlik verir. Şokoladda çox miqdarda mis var. Mis bədənin dəmiri qəbul etməsinə kömək edir. Bu da dəri, damarlar və toxumalar üçün faydalıdır.

**Kakos**

Tərkibindəki trigliseridlər sayəsində həm xoşbəxtlik verir, həm də qan axınını tənzimləyir. Lakin eyni şey kakos südü üçün keçərli deyil.

**Çiyələk**

C vitamini və müxtəlif minerallarla zəngin olan çiyələk xoşbəxtlik hormonunun artmasında önəmli rol oynayır. Mövsüm ərzində gündə 6-8 çiyələk istifadə edə bilərsiniz.

**Bal**

Normal şəkərdən qat-qat üstün şəkər mənbəyi olan bal, tərkibindəki kimyəvi maddələrlə depressiyanın qarşısını alır. Bundan əlavə şəkər kimi bədəndə yağ əmələ gətirmir və damarlara təsir göstərmir. Çox yaxşı bir enerji mənbəyidir. Bədənə və gözlərə güc verir. Əsəbləri sakitləşdirir və rahatlaşdırır.

**Banan**

Meyvələr arasında ən çox serotonin ifrazatı banandır. Kalium və B vitaminləri sayəsində enerji də verir. 1 ədəd banan gününüzü daha xoşbəxt keçirə bilərsiniz.

**Yumurta**

Tərkibində sink, B vitaminləri, yod, omeqa-3, yağ turşuları və zülal olan yumurta enerji mənbəyi olmaqla yanaşı qarnınızı tox tutur. Ona görə də səhər yeməyində yumurta istifadə edilməsi məsləhət görülür.

**Yeganə Bayramova**

# Karantin qaydalarının sərtləşdirilməsinə heç bir ehtiyac yoxdur

*Avropa ölkələrinə baxanda koronavirusla bağlı vəziyyət Azərbaycanda çox yaxşıdı*



Koronavirusa yoluxmaların sayında son günlərdə artım müşahidə edilməkdədir. Təbii ki, bu artım həm qış mövsümündən yaz mövsümünə keçidlə bağlı bədənimizdə olan dəyişikliklərlə əlaqəlidir. Həmçinin nəzərə alaq ki, havaların bir az soyuq keçməsi həm COVID-19, həm də digər qripal xəstəliklərin artma reallığı ilə insanları üz-üzə qoymaqdadır.

Bu gün digər narahatverici məqamlardan biri Novruz bayramı günlərində milli dəyərlərimizdən qaynaqlanaraq insanlar arasında təmasların daha da artması və koronavirusa yoluxma sayının artması üçün daha bir zəmin yaratmasıdır. Təbii ki, ölkədə epidemioloji vəziyyətin yenidən istəmədiyimiz səviyyəyə gəlməməsi üçün hər bir vətəndaşın mövcud epidemioloji qayda-qanunlara daha ciddi şəkildə riayət etməsi vacibdir. Əks təqdirdə məcburiyyət qarşısında bütün dünyada olduğu kimi ölkəmizdə də belə qərarların verilməsi bəzən qaçılmaz olur. Hətta zaman-zaman müəyyən orta məktəblərdə dərslərin müvəqqəti olaraq distant təhsilə qayıtdığının şahidi oluruq. Ümumiyyətlə, ölkəmizdə pandemiya ilə bağlı vəziyyət necədir? Yenidən karantin qaydalarının sərtləşdirilməsinə ehtiyac varmı?

**Suallarımızı cavablandıran həkim-pulmonoloq Ramin Nəriman "Şərq"ə açıqlamasında bildirib ki, bu günləri ölkəmizdə koronavirusla bağlı vəziyyət çox qənaətbəxşdir. Həkimin sözlərinə görə, bunun üçün Avropa ölkələrinin statistik göstəricilərinə diqqət etmək kifayətdir:** "İlk olaraq qeyd edim ki, düzdür, orta məktəblərdə koronavirusa yoluxma halları qeydə alınır. Amma bu, kütləvi xarakterdə deyil. Yəni bəzi məktəblərdə "Covid-19" aşkarlandığına görə daha da geniş yayılma olmasın deyə profilaktik məqsədlə məktəblər müvəqqəti olaraq bağlanır. Təbii ki, bu o demək deyil ki, digər məktəblər də bağlanmalıdır. Azərbaycanda pandemiyaya görə vəziyyət çox qənaətbəxşdir. Yəni müqayisə üçün Avropa ölkələrinin statistik göstəricilərinə baxa bilərsiniz. Yəni bugünkü vəziyyət koronavirusa görə çox yaxşıdır. Ona görə də hansısa sərtləşdirmə tədbirlərinə, karantin qaydalarının ciddiləşdirilməsinə gərək olduğunu düşünmürəm".

**Aynurə Pənahqızı**

# Sərnişin keyfiyyətli xidmət istəyir



*Bio-smart avtobus dayanacaqları əvvəlki layihələrə bənzəməsə yaxşıdı*

Paytaxtda bio-smart avtobus dayanacaq pavilyonlarının quraşdırılmasına başlanılıb. Bakı Nəqliyyat Agentliyindən bildirilib ki, ilk belə dayanacaq pavilyonu Heydər Əliyev Mərkəzinin yaxınlığında quraşdırılıb.

Ərazinin memarlıq üslubu ilə həmahəng olan pavilyon Heydər Əliyev prospektində, şəhər mərkəzi istiqamətində yerləşir. Bu dayanacaqdan 1, 2 və 13 nömrəli müntəzəm marşrut xətti üzrə avtobuslar keçir. Sərnişin axını baxımından əsas cəlbetmə məntəqələrindən hesab olunur. Tamamilə yerli istehsal olan bio-smart avtobus dayanacaq pavilyonunun bir çox üstünlükləri var. Pavilyon günəş enerjisi ilə çalışır. Burada dezinfeksiya duşu quraşdırılıb ki, bunun sayəsində də müəyyən olunan vaxt aralığında avtomat rejimdə dərman məhlulu səpilir. Mobil qurğular üçün enerji portlarının olduğu pavilyonda "BakıKart" ödəmə terminalı da var. Bio-smart avtobus dayanacaq pavilyonunun quraşdırılması ilə digər bir layihənin də icrasına başlanılıb. Layihəyə əsasən, paytaxt ərazisindəki dayanacaq məntəqələrinin hər birinə individual olaraq adlar veriləcək. Adlar əsasən dayanacaq məntəqəsinin yerləşdiyi məkana, həmin məkanda olan mədəni-tarixi və digər əsas obyektlərə uyğun olaraq müəyyən ediləcək. Bu mənada ilk bio-smart pavilyon "Heydər Əliyev Mərkəzi" dayanacağı adlandırılıb.

## "Bir az əvvəl elektron tablolar quraşdırıldı"

**Nəqliyyat eksperti İlqar Hüseynli "Şərq"ə açıqlamasında bildirib ki, bio-smart avtobus dayanacaq pavilyonunun bir çox üstünlükləri var.** Ekspert vurğulayıb ki, bundan öncə Azərbaycanda avtobus dayanacaqları ilə bağlı bir çox layihələr icra olunsa da, çox təəssüf ki, özünü doğrultmayıb: "Bir müddət bundan öncə avtobus dayanacaqlarında xüsusi elektron məlumat tablosu quraşdırıldı. Yəni avtobusların gediş-gəlişini dəqiq göstərəcəkdi. Nəticədə dövlət büdcəsindən bu işlərə görə kifayət qədər vəsait xərcləndi. Lakin sonda o lazımsız bir projeyə çevrildi və belə deyək ki, özünü doğrultmadı. Bio-smart avtobus dayanacaqlar bir çox üstünlüklərə malikdir. Hələlik Bakının bir neçə prospektlərində quraşdırılacaq. Təbii ki, hər kəs keyfiyyətli bir xidmət istəyir. Ümid edirəm ki, bu yeni layihə özünü doğruldacaq".

**Aynurə Pənahqızı**

## 11 yaşlı qızı ərə vermək cinayətdir

### Belə uşaqlar valideynin əlindən alınıb, dövlətə təhvil verilməlidir



**Gürcüstanda yaşayan daha bir azərbaycanlı ailənin azyaşlı övladına nişan mərasimi keçirdiyi iddia edilib.**

Bununla bağlı sosial şəbəkələrdə foto yayılıb. Həmin şəkildə görünür ki, azyaşlı qız əlində qırmızı lentli, şirinçay stəkanları tutub. Ən dəhşətlisi isə qızcığazın da baş verənləri normal hal kimi qarşılamasıdır.

Fəqət o cocuqlar heç nə anlamırlar, dərk etmirlər. Onlara rəzillik adət-ənənə adı ilə izah olunub. Bəli, nə ilkdir, nə də son!

**Hüquqşünas İradə Cavadova "Şərq"ə məlum hadisənin dəhşətli olduğunu söyləyib:** "Tez-tez buna bənzər halların şahidi oluruq. Valideynlər öz övladlarından sui-istifadə edərək cinayət törədirlər. 10-11 yaşlı qız uşaqlarını nəyinsə xatirinə, başlarından edirlər.

Düzgün yolda olduqlarını düşünürlər. Qanunvericilikdə də azyaşlı uşaqlara qarşı intim və seksual xarakterli hərəkətlər cinayət kimi qəbul olunur. Bu zaman uşaq valideynin əlindən alınıb, dövlətə təhvil verilməlidir.

Ata-ana cinayət məsuliyyətinə cəlb olunmalıdırlar. Qeyd edim ki, hüquq çərçivəsində nikah üçün yaş həddi 18-dir. Yalnız xüsusi icazə ilə bir yaş azaltmaq mümkündür. Amma azyaşlı qıza nişan mərasimi keçirib, onu nəyəsə hazırlamaq, cinayətdir.

Həyəcan təbili çalınmalıdır, buna son qoyulmalıdır. İcra hakimiyyəti ciddi nəzarət etməlidir, hüquq-mühafizə orqanları tərəfindən təxirəsalınmaz tədbirlər görülməlidir".

**Samirə Ərəblinski**



## Xəstəxana, restoran heç bir fərqi yoxdur

### Hər yerdə Operativ Qərargahın müəyyən etdiyi normalara, qaydalara əməl olunmalıdır

**Mərkəzi Klinika Xəstəxanasında karantin qaydalarının pozulması ilə bağlı foto yayılıb. Ona görə ki, insanlar klinikanın dəhlizində müayinə üçün gözləyən zaman heç bir sosial məsafə saxlanılmayıb. Dəhlizdə sıxlığın olması da karantin qaydalarının pozulması deməkdir.**

Bu haqda müəssisənin açıqlamasında fotonun hava soyuq ikən lentə alındığı bildirilib: "Konstitusiyaya görə, klinikaya müraciət edən hər bir xəstənin müalicə almaq hüququ var. Klinikada əməliyyatdan sonra sarğıya, ambulator və poliklinik müalicəyə gələn xəstələr həkim müayinəsinə buraxılır. Görünütlər də həmin vaxt çəkilib".

Koronavirus isə havanın soyuqluğunu nəzərə almadan insanlara yoluxmağa davam edir.

Məsələni "Şərq"ə dəyərləndirən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev mövzu ilə bağlı bunları söyləyib: "Xəstəxana deyil, restoran, mağaza olsun, fərqi yoxdur. Operativ Qərargahın müəyyən etdiyi normalara, qaydalara əməl olunmalıdır. İnsanlar arasında sosial məsafə gözlənilməlidir. Qapalı məkanlarda tez-tez hava dəyişdirilməlidir, maskadan istifadə edilməlidir. Əslində bu, epidemioloji tədbirlər haqqında qanunun pozulmasıdır".

**Samirə**

# Aksiz markasız siqaret qutuları sərhəddən necə keçir?

Dövlət Gömrük Komitəsinin Əməliyyat-İstintaq Baş İdarəsinin əməkdaşları Respublikanın gömrük ərazisinə qaçaqmalçılıq yolu ilə gətirilmiş xeyli miqdarda aksiz markası olmayan siqaret aşkarlayıblar. Görülən tədbir nəticəsində həmin malların ölkə ərazisində qeyri-qanuni satışının qarşısı alınıb.



*"Öncə onun gömrükdən necə keçib Bakıya qədər gəldiyini araşdırmaq lazımdır"*

Dövlət Gömrük Komitəsindən verilən məlumata görə, Əməliyyat-İstintaq Baş İdarəsinin Əməliyyat İdarəsinin Narkotiklərlə mübarizə şöbəsinə əvvəlcədən daxil olan məlumat əsasında keçirilən əməliyyat tədbiri nəticəsində qaçaqmalçılığın qarşısı alınıb. Belə ki, Bakı şəhəri Nəsimi rayonu ərazisində Azərbaycan Respublikası vətəndaşı idarə etdiyi "Kia Sorento" markalı nəqliyyat vasitəsində olan siqaretləri şərti alıcı qismində cəlb edilmiş gömrük əməkdaşına satmaq istəyərkən saxlanılıb.

Yoxlama zamanı nəqliyyat vasitəsinin arxa yük yerində 5 ədəd karton qutuların içərisində Azərbaycan Respublikasına məxsus aksiz markası olmayan 1470 qutu "Parlament Silver Blue", 1030 qutu "Parlament Agua Blue" markalı siqaretlər götürülüb. Həmçinin, avtomobilin arxa yük yerinin döşəməsinin altında olan zavod konstruksiyasında nəzərdə tutulmayan boşluqdan 990 qutu "Marlboro Touch", 20 qutu "Sobranıe superslims less smoke smell", 4 qutu "Marlboro touch less smell" markalı siqaretlər aşkar edilib.

Avtomobilin sürücüsü şifahi sorğusual zamanı Abşeron rayonu, Masazır qəsəbəsində qohumunun yaşadığı fərdi yaşayış evində əlavə olaraq Azərbaycan Respublikasına məxsus aksiz markası olmayan siqaretləri saxladığını bildirib. Dərhal əməliyyat tədbirləri davam etdirilərək qeyd edilən əraziyə baxış keçirilib, daha 8 ədəd karton qutularda Azərbaycan Respublikasının müvafiq aksiz markası ilə markalanmayan 1000 qutu "Parliament Silver Blue", 500 qutu "Parliament Agua Blue", 1980 qutu "Marlboro touch" və 500 qutu "Marlboro double mix" markalı siqaretlər aşkar edilib.

Bununla da, hüquqpozma predmeti olaraq, ümumilikdə 7494 qutu xarici markalı siqaretlər aşkar edilərək götürülüb.

**Hadisə ilə bağlı "Şərq"ə danışan iqtisadçı Əkrəm Həsənov dedi ki, öncə onun gömrükdən necə keçib Bakıya qədər gəldiyini araşdırmaq lazımdır:**

"Amma bunu Gömrük işçilərinin özü aşkar edibsə, yəqin ki, artıq həmin xidmətdə də təmizləmələr gedir. Mən bunu ancaq bu cür xarakterizə edə bilərəm. Yaxşı haldır ki, bu hadisə Bakıda da olsa üzə çıxarılıb. Buna yol verən digərləri də artıq belə şey etməkdən qorxacaq.

Düşünmürəm ki, o qədər qutunu gətirə bilən adi insan ola və siqaretləri ucuza sata. O, çox güman ki, daha çox qazanmaq istəyən sahibkardır.

Ölkədə isə insanlar siqaret, eləcə də digər zərərli məmulatlardan istifadə etməsin və ya az istifadə etsin deyə onun qiymətini artırırlar. Amma onun aludəçisi olanlar hər necəsə alıb istifadə edirlər. Canlarına da ziyan olur, ciblərinə də. Amma bu qiymət artımı ən azından insanları siqaret çəkməyə başlamamışdan əvvəl bir daha düşünməyə vadar edir. Gözünün qabağına gətirməlidir ki, bu, bahadır".

**Ağarza Elçinoğlu**

# Vaxta qənaət olacaq, ödəniş asanlaşacaq

## Mobil telefonların köməyi ilə alış-veriş mümkün olacaq



2021-ci ildə "MasterCard" Azərbaycanda QR ödənişləri inkişaf etdirəcək. Bunu şirkətin Azərbaycandakı nümayəndəsi Erdem Çakar onlayn tədbir zamanı deyib.

Onun sözlərinə görə, mobil qurğular və müvafiq tətbiqlərlə müştərilər mağazalarda POS-terminallar vasitəsilə ödəniş edə bilər:

"Biz, həmçinin, ölkədə mobil qurğular vasitəsilə ödənişlərin inkişafı üzərində işləyirik. Bu gün "MasterCard"la mobil qurğu vasitəsilə "Kapital Bank" müştəriləri ödəniş edə bilir. Əminəm ki, bu layihəyə digər banklar da qoşulacaq".

E.Çakar əlavə edib ki, şirkət yaxın zamanlarda Bakı metrosunda "MasterCard" vasitəsilə ödəniş layihəsini reallaşdırmağı planlaşdırır. **Məsələ ilə bağlı iqtisadçı-ekspert Kazım Məmmədov "Şərq"ə açıqlama verərkən bildirdi ki, sözügedən metod digər obyektlərdə də istifadə edilməyə başlasa həm vaxt itkisinə yol verilməz, həm də asan ödəməyə keçmiş olarıq:** "MasterKart bir neçə müddət idi ki, Azərbaycanda market ödəmələrinin asanlaşması yolunda "Kapital Bank"la əməkdaşlıq edir. İndi isə təkcə bir bankla yox, digər banklarla da əməkdaşlığa başlamaq niyyətindədir. Bu, çox yaxşı haldır.

Bəzən ödəmə kartı insanın üzərində olmaya bilir. Amma bizim mobil telefonlarımız hər zaman bizimlədir. Belə halda biz asanlıqla öz telefonumuz vasitəsilə POS-terminallara qoşulub ödəmə edə bilərik. Bu, bizim həm vaxtımıza, həm də ödəməni tam şəkildə asanlıqla ödəməmizə şərait yaradır.

MaterKart bu layihənin Bakı metropolitenində də keçərli olmasını planlaşdırır. Düşünürəm ki, həmin metod kartla işləyən marşrutlarda və s. vasitələrdə də keçərli olsa fərdlər daha rahat ödəmə edə bilərlər.

Bilirsiz, insanlar onsuz da pul ödəmək istəmirlər. Bir də uzaq məsafə edib metro kartına pul qoymaq və bu ənənəni teztez davam etdirmək onları usandırır. Belə olanda onlar nağd pul verib digərlərindən onların da yerinə ödəmə etmələrini xahiş edirlər. Məlum məsələdir ki, bu da sözsöhbətə, vaxt itkisinə, eləcə də gərginliyə səbəb olur. Amma həmin sistem telefonda mövcud olsa, problem də minimuma enmiş olar".

**Ağarza Elçinoğlu**

## Həkimlərin nəzarəti Rəmişin üzərindədir

**Bir müddətdir tanınmış gitara ifaçısı Rafiq Hüseynov ( Rəmiş) "Hepatit C" xəstəliyindən əziyyət çəkir. Onun müalicəsi Heydər Əliyev fondu tərəfindən nəzarətə götürülüb.**

**Musiqiçinin həyat yoldaşı Güllü xanım "Şərq"ə onun son sağlıq durumu haqqında məlumat verib:** "Müalicəsi davam edir. Ona görə bir söz deyə bilmirəm. Dava-dərman edirlər. Hamının nəzarəti Rəmişin üzərindədir. Allah Ali Baş Komandanımız İlham Əliyevi, Mehriban xanımı qorusun. Həkimlərimizə də təşəkkür edirəm".

**Samirə**

## Dövlət dəstəyi ilə 22 dəvə alınıb



**2020-ci ildə Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi damazlıq heyvanların güzəştli şərtlərlə satışı və lizinqinin maliyyələşdirilməsi ilə bağlı 423 müraciət üzrə 136,4 min manat kredit və 16,644 milyon manat güzəşt məbləği ayırıb.**

"Report" xəbər verir ki, bu barədə qurumun hesabatında bildirilir. Sənədə əsasən, həmçinin ayrılmış vəsait hesabına 8 758 baş damazlıq heyvanın alışı maliyyələşdirilib. Həmin heyvanların 5 052-si iribuynuzlu, 3 684-ü xırdabuynuzlu və 22-si isə dəvəkimilərdir.



# Ana uşağını küçədə atıb getdi

## Mehriban Zeynalova: "Bəlkə təhlükədən qorumaq istəyib? İstintaqın nəticəsini gözləmək daha məqsədəuyğundur"

Dünən Bakı şəhərində təxminən 4 yaşlı qız küçəyə atılıb. Hər nə olursa olsun, imkansızlıq uşağı küçəyə atmağa imkan vermir. Təəssüf ki, belə hallarla qarşılaşırıq. Uşağı dünyaya gətirmək, sonra küçəyə atmaq cinayətdir.

"Azərbaycan Uşaqları" İctimai Birliyinin sədri Kəmalə Ağazadə bildirib ki, dünən gətirilən uşağın valideynlərinin müəyyən olunması barədə araşdırma aparılır. O deyib ki, ilkin məlumata görə, uşaq tapıldığı ərazidə yaşamır: "Dünən gətirilən uşağın valideynlərinin müəyyən olunması barədə artıq araşdırma aparılır".

"Qızın təxminən 4 yaşı var. Adının Nərgiz olduğunu deyir. Uşaq Xətai Rayon Polis İdarəsinin Yetkinlik yaşına çatmayanlarla iş üzrə inspektoru tərəfindən bizə gətirilib. Uşaqla söhbət zamanı bildirib ki, onu anası həmin ərazidə qoyub, gedib.

Lakin uşağı görənlər deyir ki, onu qucağında körpə uşaq olan yaşlı bir qadın həmin əraziyə gətirib. Uşağın tapıldığı ərazidə heç kim onu tanımayıb. Hazırda ərazidəki təhlükəsizlik kameralarına baxılır, araşdırma aparılacaq. Daxili İşlər Nazirliyinin müvafiq şöbəsindən mənimlə əlaqə saxlanıldı".

Qeyd edək ki, hüquq-mühafizə orqanlarının verdiyi məlumata əsasən uşaq tapılan zaman çox baxımsız vəziyyətdə olub.

**Məsələ ilə bağlı fikirlərini bölüşən "Təmiz Dünya" İctimai Birliyinin sədri Mehriban Zeynalova "Şərq"ə açıqlamasında baş verən hadisəni qınayanları gördüyünü vurğulayıb:** "Biz bilmirik ki, qadının həmin an emosional vəziyyəti necə olub. Bəzən insan elə affekt durumda olur ki, etdiyi hərəkətə hakim olmur. Ona bəraət qazandırmıram, lakin bütün mövqelərdən nəzər salsaq, hadisənin hansı səbəbdən baş verdiyindən məlumatımız yoxdur. Hər halda xanımın özü tapılmadığı müddətcə məsələni aydınlaşdırmaq mümkün olmur. Ana olaraq yəqin ki, uşağından keçməz, amma hansı təsirlər olub? Bəlkə təhlükədən qorumaq istəyib? İstintaqın nəticəsini gözləmək daha məqsədəuyğundur".

**Aygün Tahirqızı**

# Soğan becərib satmaq da xeyir gətirmir

## Şəmkirin Yeni Həyat kəndində evlərdə tonlarla soğan qalıb



*Nazim Bəydəmirli: "Fermerlərə rəqabətli mühit yaratmaq üçün onların işi asanlaşdırılmalıdır"*

Şəmkirli fermerlərin min bir əziyyətlə becərdiyi məhsulu alan yoxdur. Yeni Həyat kəndinin sakinləri əkib-becərdikləri soğanı sata bilmirlər. Bu il məhsul bol olsa da, alıcı yoxdur. Fermerlər bildirir ki, xarici ölkələrdən gətirilən soğan onların məhsullarının satılmasına mane olur. Hazırda kənddə təxminən satılmayan 1700 ton soğan qalıb.

**Mövcud problemdən alternativ çıxış yollarını "Şərq"ə sadalayan iqtisadçı-ekspert Nazim Bəydəmirli bildirib ki, 1700 tonun ölkə istehlakında cüzi bir rəqəm olmasına baxmayaraq, istənilən sahibkar və fermerin belə bir problemi olduqda dövlət bu olanlara reaksiya verməlidir.**

Ekspert vurğulayıb ki, dövlətin müəyyən qurumları dəstək proqramlarını açıqlamalıdırlar: "Ənənəvi olaraq Azərbaycanda kənd təsərrüfatı istehsalı xırda fermer təsərrüfatlarında maya dəyərini artırır. Çünki başqa ölkələrə nisbətən Azərbaycanda intensiv metodlarla kənd təsərrüfatı məhsullarının istehsalı ilə rəqabət apara bilmirlər. Baxmayaraq ki, ölkəmizdə yetişdirilən məhsulların əksəriyyəti orqanikdir, daha məqsədəuyğundur.

Lakin bunu təbliğ etmək lazımdır. Fermerlərin həm yarmarkalara, həm də bazarlara çıxışı asanlaşdırılmalıdır. Onların istehsal etdikləri məhsulların maya dəyərini azaltmaq üçün müxtəlif addımlar atılmalıdır. Ayrı-ayrı şəxslər biznes araşdırması apamadan yerlərdə hansısa məhsulun becərilməsi ilə bağlı ənənəyə uyğun addım atırlar. Kənd təsərrüfatı məhsullarının becərilməsində rayonlaşdırma az tətbiq olunur".

**N.Bəydəmirlinin sözlərinə görə, kolxoz və sovxozlar ləğv olunduqdan sonra pay torpaqlarının uzun müddət pərakəndə istifadəsi, xaricdən idxala daha çox üstünlük verilməsi ölkədə aparılan aqrar siyasətin normal olmadığı anlamına gəlir:**

"Dövlət ildə təqribən 800 milyon manat ərzaq alışına vəsait xərcləyir. Hərbi hissələr, bağçalar, internat məktəbləri və digər müəssisələrin ərzaq ehtiyacı qarşılanır.

Son zamanlar İqtisadiyyat Nazirliyinin təşəbbüsü ilə belə müəssisələrin ehtiyacları üçün alınan kənd təsərrüfatı məhsullarında daha çox yerli istehsala önəm verilməsi işləri görülür.

Baxaq görək bunun nəticəsi nə olacaq. Lakin aqrar ticarət şirkəti kimi Kənd Təsərrüfatı Nazirliyinin yanında bir MMC yaradılması, dövlət büdcəsi hesabına ticarətlə məşğul olunmasına qarşıyam. Hesab edirəm ki, bu, dövlət vəsaitinin səmərəsiz xərclənməsidir.

Kənd Təsərrüfatı Nazirliyi ümumi dövlət siyasətini həyata keçirərək həm də antiinhisar fəaliyyət haqqında qanuna riayət etməlidir. Fermerlərə rəqabətli mühit yaratmaq üçün onların işi asanlaşdırılmalıdır. Bu zaman effektiv nəticələr əldə oluna bilər".

**Yeganə Bayramova**

## Məktəblərin açılmasına tələsildi

**Şəmsiyyə Namazlı: "Dövlət məktəblərində sinifdəki şagirdlərin sayı çoxdur"**



**Paytaxtdakı 106 saylı tam orta məktəbin fəaliyyəti distant təhsil formasında davam etdiriləcək. Çünki həmin təhsil müəssisəsində 2 nəfər laborant, 1 nəfər uşaq birliyi təşkilatı rəhbəri və 1 nəfər direktor müavininin kovid testi pozitiv çıxıb.**

Bu səbəbdən Bakı şəhəri Qaradağ rayonu Gigiyena və Epidemiologiya Mərkəzinin rəyi əsasında məktəbdə əyani tədris prosesi müvəqqəti olaraq dayandırılıb.

Bakı Şəhəri üzrə Təhsil İdarəsindən verilən məlumata görə, bu günə qədər 2 məktəb COVİD-19 səbəbi ilə karantinə bağlanıb.

**Mövzu haqqında "Şərq"ə danışan tibb və fəlsəfə elmləri doktoru Şəmsiyyə Namazlı deyib ki, məktəblərin əyani fəaliyyətə başlaması üçün tələsildi:** "Müəllimlərin vaksinasiyasından sonra məktəblərin açılması daha uyğun olardı. Çünki təhsil müəssisələrində geniş sinif otaqları yoxdur. Xüsusilə də dövlət məktəblərində sinifdəki şagirdlərin sayı çoxdur. Onlar dərsdə sıx-sıx əyləşirlər. Əslində isə bir partada bir şagird oturmalıdır. Təbii ki, özəl müəssisələrdə də qayda pozuntuları müşahidə olunur. Onu da deyim ki, müəllimlər dərsdə tibbi maskalardan istifadə etsə də, tənəffüs zamanı qarışıqlıq yaranır. O zaman sosial məsafənin gözlənilməsi mümkün deyil. Bəzən isə direktorlar dəhlizdə maskasız gəzirlər". Ş.Namazlı onu da əlavə edib ki, hamı məktəbə xüsusi maşınla gəlmir. İctimai nəqliyyatdan istifadə edənlər var: "Avtobuslarda da sıxlıq yaranır. Bu zaman yoluxma da ola bilər. Beləliklə biri digərini yoluxdurur. Bir də bilmirəm, məktəblərdə gigiyena qaydalarına necə əməl olunur, dezinfeksiyaedici maddələr mütəmadi istifadə edilirmi? Bu məsələ də sual altındadır".

**Samirə Ərəblinski**

## "Müəllimin maaşı nə qədər çox olsa da..."

*Rafiq İsmayılov: "...Müəllimin əxlaqında və şüurunda həmin istək varsa, hər bayram valideynin əlinə göz dikəcək"*



Qarşıdan 8 Mart Beynəlxalq Qadınlar günü gəlirsə, şagirdlərin valideynləri bayramqabağı "pul təlatümü" üçün hazırlıq görür. Əgər bir valideynin 2-3 övladı varsa, məcburiyyət qarşısında qalıb maaşının yarısını hədiyyə etməli olur.

Belə halların qarşısını almaq üçün Təhsil Nazirliyi 8 Mart ərəfəsində valideynlərə, həmçinin məktəb müəllimlərinə xəbərdarlıq edir: "Təhsil Nazirliyi qarşıdan gələn 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə bütün xanımları təbrik edir. Bu gün pedaqoji heyətimizin böyük əksəriyyətini təşkil edən xanım müəllimlərimizin, həm də fədakar ana kimi Vətən müharibəsində iştirak etmiş qəhrəman övladların yetişməsində rolu danılmazdır.

Bayram münasibətilə xoşagəlməz hallara qarşı müəllimlər, valideynlər və ümumilikdə, cəmiyyət olaraq birgə mübarizə aparmalı, dəyərlərimizi qorumalı və gələcək nəsillərə çatdırmalıyıq", - nazirlik bildirib.

**Məsələ ilə bağlı fikirlərini "Şərq"lə bölüşən fəlsəfə doktoru, təhsil eksperti Rafiq İsmayılov bildirib ki, nazirlik hər məktəbə gedib yoxlama apara bilməz:** "Təhsil Nazirliyi sadəcə bacardığını edir. Açıq deyək ki, bu, rüşvət deməkdir. Ancaq müəyyən yerlərdə yenə eyni hallar yaşanır.

Belə məsələlər bəzən müəllimin təhriki, bəzən də valideynin istəyindən irəli gəlir. Məncə, hər şey əxlaq və şüurla bağlıdır.

Müəllimin maaşı nə qədər çox olsa da, əgər müəllimin əxlaqında və şüurunda həmin istək varsa, hər bayram valideynin əlinə göz dikəcək. Əxlaqlı müəllim nə qədər aşağı maaş alır-alsın, hədiyyələr qəbul etməyi özünə sığışdırmayacaq.

Doğrudur, qadınların bayramıdır, valideynlər tərəfindən diqqət göstərilə bilər. Amma bu, qiymətli hədiyyələr şəklində olmamalıdır. Sinif adından gül dəstəsi təqdim edilə, yaxud müəyyən divar qəzeti hazırlamaq olar.

Hamımız bilirik ki, müəllimlərin maaşı aşağıdır, lakin hər şeyi bu məqamla bağlamaq düzgün deyil. Bacarıqlı insan müəllimlikdən başqa bir işlə də məşğul olub pul qazana bilər. Yaxşı müəllimlərin maaşı heç də aşağı deyil".

**Aygün Tahirqızı**

## Ən qiymətlisi 1,7 milyon avrodur

**Hər il yerə 40 milyon ton meteorit düşür**

*(Əvvəli səh: 16-da)*



**Oxucularımız üçün dünyanın ən qiymətli meteoritlərinin siyahısını tərtib etdik: "Çelyabinsk Meteoriti" - 336 min avro dəyərində olan bu meteorit, 2013-cü ildə Rusiyanın Çelyabinsk şəhəri üzərindəki meteorit partlaması nəticəsində ortaya çıxdı.**

O dövrdə bir çox insana xəsarət yetirən bu daş maddi cəhətdən də çox dəyərlidir. Böyük parçalardan ibarət olan bu meteorit, 336 min avro qiyməti ilə görənləri heyrətləndirir. **"Zagami" adlı Mars daşı** - Bu asteroid 1962-ci ildə Nigeriya torpağına düşüb. Meteoritin ən böyük parçası 2006-cı ildə 383 min avroya satılıb.

**"YazSuyu Meteoriti"** - Görünüşü ilə nəhəng bir süngərə bənzəyən bu meteorit tam olaraq 117 kiloqramlıq bir palazit daşıdır. İlk dəfə 1931-ci ildə Kanadada bir fermada görülən bu meteorit 4,5 milyard yaşındadır və çox miqdarda mineral ehtiva edir. Torontoda "Kral Ontario" muzeyi tərəfindən 511 min avroya satın alınan bu meteorit hazırda ziyarətçilər üçün sərgilənməkdədir. **"Vilyamet Meteoriti"** - Bu meteorit 2007-ci ildə Nyu-Yorkda bir milyon avroya satışa çıxarıldı. Meteoritin indiyədək yer üzündə tapılan ən böyük meteoritlərdən biri olduğu ehtimal edilir. 1902-ci ildə kəşf edilən zaman 16 tondan çox ağırlığında idi. **"Brenham" Meteoritinin əsas hissəsi** - Bu meteorit yarım ton ağırlığında və 896 min avro dəyərindədir. 2005-ci ildə Kanzasda tapılıb. Zamanla diqqət çəkən meteorit, daha sonra muzeydə nümayiş etdirilməsi üçün satın alınıb. **"Fukanq" Meteoriti** - Olivin kristalları ilə nikel dəmirindən ərsəyə gələn bir palazitdir. Elm adamları yer üzünə düşən meteoritlərin yalnız yüzdə birinin palazit olduğuna inandıqları üçün, həqiqətən nadir bir meteorit olan **"Fukanq" meteoriti** 2000-ci ildə aşkar edildikdən sonra fərqli toxuması və görünüşü ilə dövrün ən çox danışılan mövzularından biri idi. 4,5 milyard illik bu meteoritin dəyəri 1,7 milyon avrodur. Digər meteoritlər kimi, bu meteorit də düşdüyü bölgənin adını daşıyır.

**Ağarza**

## Alimlər şokoladın daha bir faydasını üzə çıxarıblar



**Bununla belə, alimlər xəbərdarlıq ediblər ki, şokoladı yalnız kiçik porsiyalar halında yemək lazımdır, əks halda, piylənməyə və ikinci tip şəkərli diabetə gətirib çıxara bilər.**

Şokolad insanın ürək-damar sisteminin fəaliyyətini yaxşılaşdırır. RİA Novosti xəbər verir ki, bu nəticəyə Amerikanın Beylor tibb kollecinin alimləri gəliblər. Onların araşdırmasının nəticəsi "European Journal of Preventive Cardiology" jurnalında dərc olunub. Mütəxəssislər 300 min xəstənin məlumatlarını analiz edərək şokolad istehlakı ilə koronar ürək xəstəliyi arasında əlaqə olduğunu müəyyənləşdiriblər. Həftədə ən az bir dəfə şokolad yeyən insanlarda bu xəstəliyə məruz qalma riskinin digərlərinə nisbətən 8 faiz az olduğu ortaya çıxıb. Alimlər bunu şokoladın tərkibindəki stearin turşusunun, flavonoidlər və polifenolların - ürəyi gücləndirən və "yaxşı" xolesterol səviyyəsini artıran elementlərin olması ilə əlaqələndiriblər. Bununla belə, alimlər xəbərdarlıq ediblər ki, şokoladı yalnız kiçik porsiyalar halında yemək lazımdır, əks halda, piylənməyə və ikinci tip şəkərli diabetə gətirib çıxara bilər.

## Azercell müştəri təcrübəsinin idarə edilməsinə görə yeni mükafat qazanıb

*Daha bir beynəlxalq ISO - Keyfiyyətin İdarə Olunması standartı lider mobil operatorun abunəçilərinə göstərdiyi yüksək xidmət səviyyəsinin növbəti göstəricisidir*

Müştəri Xidmətləri sahəsində ölkəmizdə örnək olan "Azercell Telekom" MMC ISO 10004:2018 : Keyfiyyətin idarə olunması/Müştəri məmnuniyyətinin monitorinqi və ölçülməsi üzrə təlimatlar beynəlxalq standartına uyğunluq üzrə sertifikasiya auditini başa vuraraq məhz həmin standart üzrə ilk sertifikatını əldə etdi.

"Büro Veritas Azeri" MMC tərəfindən aparılmış audit zamanı müştəri məmnuniyyətinin ölçülməsi və monitorinqi prosesi haqda ətraflı məlumat verildi. Buraya prosesin ümumi əhatə dairəsi, müştəri məmnuniyyətinin ölçülməsinin müxtəlif üsulları, əldə edilən nəticələr əsasında müvafiq tədbirlərin görülməsi və proseslərin, eləcə də xidmətlərin təkmilləşdirilməsində məlumatın istifadə edilməsi və s.kimi tərkib hissələr daxil idi.


BUREAU VERITAS Certification

AZERCELL TELECOM LLC

149 Tbilisi Ave., Baku, AZ1122, Azerbaijan

Bureau Veritas Certification certify that the Management Systems of the above organisation has been audited and found to be in accordance with the requirements of the management system standards detailed below

Standard

ISO 10004:2018

Scope of certification

MOBILE COMMUNICATION SERVICES

Original cycle start date: 20 February 2021

Expiry date of previous cycle: N/A*

Certification / Recertification Audit date: 04 December 2020

Certification / Recertification cycle start date: 20 February 2021

Subject to the continued satisfactory operation of the organization's Management System, this certificate expires on: 19 February 2024

Certificate No. AZ1325 Version No: 1 Revision date: 20 February 2021

Certification Manager

BUREAU VERITAS

Page 1/1

Müasir texnologiyaların və biznes həllərin köməyilə müştərilərinin işini asanlaşdırmağı hədəfləyən Azercell hazırda öz abunəçilərinə bütün mümkün platformalar üzərindən xidmətləri təqdim edir. Şirkət sosial şəbəkələr üzrə müştərilərə göstərilən xidmət səviyyəsi, müraciətlərin cavablandırılması üzrə dəfələrlə beynəlxalq sertifikatlara layiq görülüb. Hətta, COVID-19 pandemiyası ilə əlaqədar tətbiq olunan sərt karantin rejimində Azercell Müştəri Xidmətləri fasilesiz olaraq onlayn şəkildə fəaliyyət göstərib, yaşı 65-dən yuxarı olan abunəçilərə isə Səyyar Müştəri Xidmətləri tərəfindən pulsuz xidmət aparılıb. Azercell-in istifadəyə verdiyi "Kabinetim" tətbiqi müştəri məmnuniyyətinin artırılması, şikayətlərin dərhal həlli istiqamətində atılmış böyük addımlardan biri olub.

ISO (Beynəlxalq Standartlaşdırma Təşkilatı) ümumdünya milli standartlar qurumları (ISO üzv qurumları) federasiyasıdır. İndiyədək federasiya tərəfindən idarəçilik, texnologiyalar və biznes sahəsində əmtəələrə, xidmətlərə və müsbət təcrübələrə dair minlərlə standartlar müəyyənləşdirilib.

*Qeyd edək ki, müştərilərə göstərdiyi xidmət keyfiyyətinin ölçülməsi ilə bağlı Şirkət daha öncə ISO 10002:2018 : Keyfiyyətin İdarə Olunması /Müştəri Məmnuniyyəti /Müəssisələrdə Şikayətlərə Baxılmasına dair təlimatlar standartına uyğunluq üzrə sertifikat və ISO 18295:2017 : Əlaqə Mərkəzlərinin idarə edilməsi sahəsində uyğunluq sertifikatına layiq görülüb.*

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu: Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41 538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 440



## Ən qiymətlisi 1,7 milyon avrodur

### Hər il yerə 40 milyon ton meteorit düşür

**Meteorit məsələləri, əslində, dünyanın kifayət qədər alışdığı bir mövzudur.**

Çünki hər il dünyaya təxminən 40 milyon ton meteorit düşür. Bunlardan bəziləri olduqca kiçik, bəziləri daha böyük və alimlərin araşdıra biləcəyi xüsusiyyətlərə sahib olurlar.

Dünyanın ən qiymətli meteoritləri də diqqəti cəlb edir, çünki milyardlarla avro qiymətinə olan bu xüsusi daşlara çox nadir hallarda rast gəlinir.

## Dünyada ilk olacaq

### ABŞ kosmik otelə ev sahibliyi etməyə hazırlaşır



**ABŞ-ın "Gateway" Fonduna bağlı "Orbital Assembly Corporation" (OAC) tərəfindən hazırlanan "Voyager Station " dünyanın ilk kosmik otelinə ev sahibliyi etməyə hazırlaşır.**

"Şərq" Sputnik-ə istinadən bildirir ki, dünyanın alçaq orbitin də yerləşəcək otelinin inşasına 2025-ci ildə başlaması nəzərdə tutulur. Onun 2027-ci ildə istifadəyə verilməsi planlaşdırılır.

*Qeyd edək ki, "Kosmik otel" Yer ətrafında səyahətini hər 90 dəqiqədən bir başa çatdıracaq.*

**Aygün**

## Heç nə yaddaşından silinməyib

### Xəstə qadın 14 yaşından bu günə qədər bütün hadisələri ən incə detallarına qədər xatırlayır



**Həyatınız boyu bütün peşmanlıqlarınızı, ürək ağrılarınızı, itirdiklərinizi, qısaca, sizi siz edən bütün kədərli anları unuda bilmədiyinizi düşünün. Bu sizin üçün çox çətin olar, elə deyilmi?**

Kaliforniyanın cənub bölgəsində yaşayan amerikalı Jill Price adlı bir qadın həyatında yaşadığı heç bir hadisəni unutmur, daha doğrusu, istəsə də unuda bilmir. "Hipertimezi" adlandırılan xəstəlik onu buna məcbur edir. O, 14 yaşından bu günə qədər bütün hadisələri ən incə detallarına qədər xatırlayır. Bu özəllik kimilərinə görə mükəmməl hesab edilirsə də, Price həmin xəstəliklə yaşamağın böyük bir zülmdən ibarət olduğunu deyir. Onun sözlərinə görə, bütün həyatı boyu hər şeyi xatırlamaq çox çətindir.

**Aytac**

## "33 il mənasız yaşamışam"

### Merve Özbey körpəsi ilə xəstəxanadan ayrılıb



**Bir neçə gün əvvəl ana olan müğənni Merve Özbey körpəsi ilə xəstəxanadan ayrılıb.**

Çıxışda media mənsublarını görən ifaçı onlarla ayaqüstü söhbət edib.

Qızına mərhum atasının istəyi ilə Elif Özüm adını verən Merve onu ilk dəfə qucağına alarkən yaşadığı sevinc hisslərindən bəhs edib:

"Qızımı qucağıma alanda anladım ki, 33 il mənasız yaşamışam. Artıq həyatımız onun üzərinə qurulacaq. Allah övlad həsrətində olan hər kəsə körpə qismət etsin. Bu ifadəsi mümkünsüz bir sevinc hissidir".



# Haqqın yolunu tapdı



## Heç bir iş görmədən pul qazanır

**Yaponiyada Moritomo Shooji adlı bir kişi özünü icarəyəyə verərək pul qazanır.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, 37 yaşlı kişi gün ərzində yemək və içmək kimi gündəlik fəaliyyətlərdən başqa bir şey etmədiyini söyləyir. Yaponiyada "heç bir şey etməyən adam" olaraq tanınan Morimoto Shooji dolanışığını müştərilərə özünü icarəyə verməklə təmin edir. Morimoto açıqlamasında bildirib ki, o, hansı işi görsə də, onu uzun müddət davam etdirə bilməyib. Sonra bir müddət heç bir şey etməməyin daha yaxşı olacağını düşünüb. Bəlli bir şeylə məşğul olmayaraq bu şəkildə gözləyib. O bildirib ki, "Heç bir şey təqdim olunmadıqda necə bir tələb gələ bilər?" deyə düşünüb.

Yapon cəmiyyətindəki bəzi problemlərə diqqət çəkən Morimoto qeyd edib ki, bir dükana tək gedə bilməyən və ya bəzi yerlərə təkbaşına girə bilməyəcəyini düşünən və hiss etməyən yaponlar var: "Hətta tək olunca otağını təmizləməyən, sıxılan, telefonla məşğul olub bezənlər də var. Bir gözün onları izləməsini, ya da gördükləri işdə onların yanında olmasını istəyirlər".

Beləliklə, Morimoto tək qala bilməyən, tək olunca işlərini görə bilməyən, ya da tərsi, yorğunluqdan işlərini çatdıra bilməyən və bir köməkçiyə ehtiyacı olan yapon icması üçün özünü xidmətə qoyub.

**Aynurə**

## 700 pişiklə tənha yaşayır

### Lynea ömrünü heyvanlara həsr edib



**Heyvanlara qarşı sevgi hər insanın yaşamalı olduğu bir hissdir. Amma bir evdə 700 pişiyin saxlanılması necə?**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, 700 pişiklə eyni evdə yaşamaq təbii ki, bir qədər qəribə səslənir. Təbii ki, ilk olaraq "bu necə olur" deyə düşünürsünüz. Açığı, tarixdə belə bir hadisə yaşanıb. Lynea Lattanzio adlı qadın düz 700 pişiklə bir evdə yaşayır. Buna səbəb isə 1981-ci ildə boşandıqdan sonra ömrünü pişiklərin həyatını xilas etməyə həsr edib. 1981-ci ildən bu günə qədər isə 19 mindən çox pişik qurtarıb. Hazırda Parlerdə 12 hektarlıq bir ərazidə 700 pişiklə tək-tənha yaşayır.



**Aynurə**





## "Məni dəhşətə gətirdi"

### Beyonsun ərinə məktub yazdı

**Müğənni Beyonsun anası Tina Noulis kürəkəni Cey-Z-yə məktub yazıb.**

Axşam.az xarici KİV-ə istinadən bildirir ki, Tina yazdığı məktubu 3 milyona yaxın izləyicisi olan İnstaqram sosial şəbəkəsində paylaşıb. 67 yaşlı Noulis məktbubda bunları qeyd edib:

"Xəyanət xəbərləri ilə gündəmə gəldikdən sonra onun haqqında yazılanlar məni dəhşətə gətirdi. Amma o, yoluna davam etdi. İnsanlar nə qədər təhqir etsə də, böhtan atsa da, o heç vaxt yolundan dönmədi. Sən düzgün adamsan. Ümid edirəm, keçmişdə necə olmusansa, elə də davam edərsən. Səni çox sevirəm".